4 avqust 2021 №58-59 (1836) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycanı dünyada tanıdan brend

### Bakıda 6 saylı "ASAN Xidmət"in açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 saylı Bakı "ASAN Xidmət" mərkəzinin açılışında iştirak edib.




Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına mərkəz barədə məlumat verib.

Bildirib ki, 6 saylı "ASAN Xidmət" mərkəzində müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Mərkəzdə ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilər, Vətən müharibəsinin iştirakçılarıdır.

Bildirilib ki, hazırda ölkədə fəaliyyət göstərən 20 "ASAN Xidmət" mərkəzinin 5-i Bakıda, 15-i digər şəhər və rayonlardadır. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN Xidmət" mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar "ASAN Xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. İndiyədək "ASAN Xidmət"ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Qeyd edək ki, dövlət başçısının təşəbbüsü ilə 2012-ci ildə yaradılan Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "ASAN Xidmət" mərkəzləri bürokratik əngəllərin qaldırılması və innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanınıb.

Prezidentə ASAN sosial innovasiyalar texnoparkı, görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN İCESCO mükafatı barədə də məlumat verilib.

## Mədəniyyət naziri Yunus Əmrə İnstitutunun nümayəndə heyətini qəbul edib

Mədəniyyət naziri Anar Kərimov avqustun 3-də Yunus Əmrə İnstitutunun rəhbəri Şərəf Atəşin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycanla Türkiyə arasında mədəniyyət, kitabxana sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, zəngin tarixi ilə tanınan Qarabağa həsr olunmuş filmlərin çəkilməsi, ortaq mədəni irsin qorunması, qarşılıqlı uzunmüddətli təlimlərin keçirilməsi, tarixi abidələrin tədqiqi ilə bağlı fikir mübadiləsi aparılıb.

səh. 2

## Kino Gününün gecəsi – peşə bayramında dörd premyera

### "Əsas məqsəd Azərbaycanda kino istehsalını daha da inkişaf etdirib dünyada rəqabətli sənayeyə çevirməkdir"

Avqustun 2-də Azərbaycanda kino sənətinin yaranmasının 123 yaşı tamam oldu. 1898-ci il avqustun 2-də Bakıda fotoqraf və kinooperator Aleksandr Mişon çəkdiyi bir neçə kinosüjeti ("Bibiheybətdə neft fontanı yanğını", "Qafqaz rəqsi" və s.) nümayiş etdirib. Prezident Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli sərəncamı ilə 2 avqust "Azərbaycan Kinosu Günü" elan olunub.




Azərbaycan kinosu, demək olar ki, dünya kinosunun tarixi ilə bərabər yaranaraq böyük inkişaf yolu keçib, xalqın mədəni-mənəvi həyatında özünəməxsus yer tutub. Kino kollektiv yaradıcı sənətdir. Bir filmin arxasında onlarla insanın zəhməti var. Hər bir filmin yaranması öncə istedad və sənət fədakarlığı tələb edir. Bu baxımdan mədəniyyət təqvimimizin 2 avqust tarixi ümumilikdə kinoya bağlı, bu sahə ilə əlaqəli olan bütün insanların – yaradıcı, texniki işçilərin peşə bayramıdır.

Ötən il pandemiya səbəbindən keçirilməyən Azərbaycan Kinosu Günü bu il, yenə pandemiya şəraiti nəzərə alınaraq, fərqli formatda, amma kino işçilərini və kinosevərləri bir araya gətirərək qeyd olundu. Avqustun 2-də Dənizkənarı Milli Park ərazisində, YARAT Müasir İncəsənət Məkanının qarşısında açıq havada Azərbaycan Kinosu Gününə həsr olunmuş "Kinosevərlər gecəsi" keçirildi. Tədbir Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Məkanının birgə əməkdaşlığı ilə reallaşdı.

Tədbiri açıq elan edən Mədəniyyət Nazirliyi Kinematoqrafiya şöbəsinin müdiri Rüfət Həsənov 2 avqust – Milli Kino Günü münasibətilə bu sahədə çalışan insanları təbrik etdi. Bildirdi ki, 123 yaşını qeyd edən Azərbaycan kinosu zəngin inkişaf yolu keçib: "Biz ənənəvi olaraq hər il Milli Kino Gününü təntənəli şəkildə qeyd edirik. Bu il əlamətdar günü fərqli təşkil etməyi, pandemiya şəraitində hər kəsin böyük ekran üçün darıxdığı bir vaxtda açıq havada, festival şəklində qeyd etməyə qərar verdik. Kinosevərlərə beynəlxalq festivallarda ölkəmizi uğurlu təmsil edən 2 tammetrajlı və 2 qısametrajlı film təqdim ediləcək. Bu filmlər ilk dəfə nümayiş olunur. Önəmli tərəfi odur ki, gənc rejissorların bu ekran əsərləri həm dövlət, həm də özəl sektor tərəfindən lentə alınıb. Dövlət və özəl sektorun əməkdaşlığından danışarkən YARAT Müasir İncəsənət Məkanının rəhbərliyinə bizə yaratdığı şəraitə görə təşəkkür edirəm".

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov tamaşaçıları Milli Kino Günü münasibətilə təbrik etdi. Bildirdi ki, tədbirə bu qədər insanın toplanması milli kinomuza olan marağın göstəricisidir. Bu il Azərbaycan kinosunun 123-cü ilinin tamam olduğunu deyən nazir qeyd etdi ki, kino ilk dəfə Fransada yarandıqdan cəmi 2 il sonra Azərbaycana gəlib. Bu, böyük bir nailiyyətdir. Buna görə Azərbaycan kinosu ilə fəxr etməliyik.

davamı səh. 2-də

## Musiqi ilə dolu beş gün...

### XII Qəbələ Musiqi Festivalı sənətçi və sənətsevərlər üçün bayram oldu

Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını musiqiçilərin və sənətsevərlərin üzünə açdı. Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi və Bakı Musiqi Akademiyasının dəstəyi ilə iyulun 31-də başlayan XII Qəbələ Musiqi Festivalı avqustun 4-də başa çatır.

Builki festival əlamətdar hadisəyə – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illik yubileyinə həsr olunub. Ölkə başçısı İlham Əliyev yubileylə bağlı 2021-ci il mayın 26-da sərəncam imzalayıb. Sərəncama uyğun olaraq müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub. XII Qəbələ Musiqi Festivalı da əlamətdar yubileyə həsr olunmuş tədbirlərdən biridir.

Musiqi ictimaiyyəti arasında böyük rəğbətlə qarşılanan Qəbələ Musiqi Festivalının proqramı bu il də çox zəngindir və klassik musiqi ilə yanaşı, muğam və xalq musiqisini də əhatə edir.

İyulun 31-də festivalın rəsmi açılışından öncə Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzinin kamera zalında musiqisevərlərə Ü.Hacıbəyli adına BMA-nın tələbələrinin iştirakı ilə ilk konsert təqdim olunub. Konsertdə respublika və beynəlxalq müsabiqələr laureatları çıxış ediblər. Pianoçular Leyla Zeynalova, Atabala Manafzadə, Cəmil Sədizadə, Rəşid Behbudov, Jalə Mayılova, Səbinə Muradova, Gülər Ağayeva və Fəqan Həsənlinin, violin ifaçıları Osman Mustafazadə, Zərrin Əliyeva və Aysel Abdullayevanın, violonçel ifaçısı Orxan Hüseynovun, həmçinin viola, fleyta, klarnet və truba ifaçılarının, vokalçılar Nigar Əsgərova və Sübhan Rüstəmovun ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.




Konsertdə S.Raxmaninov, H.Venyavski, A.Messager, A.Skryabin, A.Piazzolla, F.Şopen, D.Şostakoviç, həmçinin Azərbaycan bəstəkarlarından Tofiq Quliyev, Fikrət Əmirov və Müslüm Maqomayevin əsərləri səsləndirilib.

***

Həmin gün axşam "Qafqaz Resort" hotelində açıq səhnədə XII Qəbələ Musiqi Festivalının təntənəli açılış mərasimi olub.

Mərasimdə əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna xidmətləri olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub. Məktubda diqqətə çatdırılır ki, 2009-cu ildən etibarən ənənəvi olaraq təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə böyük töhfəsini verən musiqi bayramı kimi ölkəmizin hüdudlarından kənarda da şöhrət qazanıb.

davamı səh. 3-də




## Xalq artisti Amaliya Pənahovanın xatirə barelyefinin açılışı olub

Avqustun 2-də görkəmli teatr və kino xadimi, Xalq artisti, Dövlət mükafatı laureatı Amaliya Pənahovanın (1945-2018) Bakı şəhərində yaşadığı binanın (Fikrət Əmirov küçəsi 1) fasadında xatirə barelyefinin açılış mərasimi keçirilib.

Mərasimdə mədəniyyət naziri Anar Kərimov, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Xalq artisti Azər Paşa Nemətov, xalq artistləri Həmidə Ömərova, Hacı İsmayılov, Rasim Balayev, Nurəddin Mehdixanlı və aktrisanın digər həmkarları iştirak ediblər.

davamı səh. 3-də

## Amerikalı vokalçı Della Miles Qoçaq Əsgərovla "Xarıbülbül"ü oxuyacaq

Məşhur amerikalı vokalçı Della Miles Azərbaycan Mədəniyyət Nazirliyinin və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) dəstəyi ilə ölkəmizə səfərə gəlib.



Amerikalı müğənninin bir neçə ay öncə Azərbaycanın Vətən müharibəsindəki Zəfərinə həsr etdiyi "Qarabağ Azərbaycandır!" adlı klipi işıq üzü görüb. Avqustun 7-dək davam edəcək səfər zamanı həmin klipin təqdimatı planlaşdırılır.

Bundan əlavə, Della Milesin tanınmış xanəndə, Əməkdar artist Qoçaq Əsgərovla duet ifası da təqdim olunacaq. Onlar gənc bəstəkar, beynəlxalq müsabiqələr laureatı Tural Məmmədlinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Şuşaya həsr etdiyi "Xarıbülbül" şeirinə bəstələdiyi mahnını ifa edəcəklər.

Qoçaq Əsgərov bildirib ki, Della Milesin ölkəmizə səfərinin əsas məqsədi 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan Qarabağ torpaqlarına səfər etmək, erməni vandalizmi ilə tanış olmaq və "Xarıbülbül" mahnısını ifa etməkdir.

Della Miles ABŞ-ın Texas ştatında musiqiçi ailəsində dünyaya gəlib. Gənc yaşlarında Los-Ancelesə köçüb. M.Cekson, U.Hyuston kimi ünlü müğənnilərin vokalçısı olub. Hazırda Türkiyədə yaşayır.

## İlk qadın xor dirijorumuz

Azərbaycanda xor musiqisinin yorulmaz təbliğatçılarından biri də ilk qadın dirijorumuz, Əməkdar incəsənət xadimi, professor Ləman Atakişiyeva olub. O, eyni zamanda ölkəmizdə xor ifaçılığında özünəməxsus yeri olan kamera xorunun təşkilatçısı və bədii rəhbəri kimi tanınıb.

Onun yaratdığı kamera xoru keçmiş SSRİ-nin onlarla şəhərində, Rumıniyada qastrol səfərlərində olub. 1981-ci ildə Atatürk adına İstanbul Opera və Balet Teatrına baş xormeyster vəzifəsinə dəvət olunan sənətkar üç teatr mövsümündə 10-dan çox xarici bəstəkarın əsərlərini hazırlayıb.

səh. 6

## Məryəm çətin seçim qarşısında



səh. 5

## Bakı Beynəlxalq Qısa Filmlər Festivalı 12-ci dəfə keçiriləcək

səh. 2



## Açıq havada "Fotoların tarixi"

səh. 8

# Azərbaycan hər zaman olduğu kimi qardaş Türkiyənin yanındadır

"Qardaş Türkiyənin müxtəlif bölgələrində baş vermiş güclü meşə yanğınları və onların törətdiyi fəsadlar barədə xəbər bizi son dərəcə kədərləndirir. Əminəm ki, Sizin rəhbərliyiniz altında hökumətinizin atdığı qətiyyətli addımlar sayəsində əzmli və mübariz Türkiyə xalqı bu fəlakətin öhdəsindən tezliklə gələcəkdir".

Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 30-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda vurğulanır.

Məktubda bildirilir ki, Azərbaycan hökuməti və xalqı, hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

"Dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm", - deyə Prezident İlham Əliyev qeyd edib.

Xatırladaq ki, Türkiyənin əsasən turistik bölgələrini əhatə edən meşə yanğınları iyulun 29-da başlayıb. Dövlət başçısının tapşırığı ilə qardaş ölkəyə göndərilən Azərbaycan yanğınsöndürənləri də fəlakətlə mübarizədə iştirak edirlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan meşə yanğınları ilə mübarizədə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib. Rəcəb Tayyib Ərdoğan bu barədə rəsmi "Twitter" hesabında paylaşım edib.

"Meşə yanğınları ilə mübarizəmizə dəstəyini, keçmiş olsun diləklərini, başsağlığını göndərən, kömək etməyə hazır olduğunu bildirən və yardım göndərən bütün dost ölkələrə və təşkilatlara millətim adından təşəkkür edirəm. İnşallah, bu çətin prosesi ən qısa zamanda keçəcəyik", – deyə paylaşımda bildirilir.

# Xalq artisti Flora Kərimova "Şərəf" ordeni ilə təltif olunub

Prezident İlham Əliyev iyulun 31-də tanınmış müğənni, Xalq artisti Flora Kərimovanın "Şərəf" ordeni ilə təltif olunması haqqında sərəncam imzalayıb. Sənətkar Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə təltif edilib.

Ölkə başçısının digər sərəncamı ilə Flora Ələkbər qızı Kərimovaya Prezidentin fərdi təqaüdü verilib.

İyulun 23-də 80 yaşı tamam olan görkəmli müğənni bir çox Azərbaycan bəstəkarlarının mahnılarını yüksək sənətkarlıqla ifa edib. O, bənzərsiz səsi və ifa manerası ilə milli estrada sənətinin inkişafına töhfələr verib, musiqisevərlərin dərin rəğbətini qazanıb.

# Mədəniyyət naziri Yunus Əmrə İnstitutunun nümayəndə heyəti ilə görüşüb

Mədəniyyət naziri Anar Kərimov avqustun 3-də Yunus Əmrə İnstitutunun rəhbəri Şərəf Ataşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



Anar Kərimov nümayəndə heyətini səmimi salamlayıb, qardaş Türkiyədə baş vermiş meşə yanğınlarının törətdiyi fəsadlardan sarsıldığını bildirib, yanğınlar zamanı həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib.

Şərəf Ataş qardaş Azərbaycanın bu günlərdə Türkiyəyə göndərdiyi yardım heyəti və texnika dəstəyinə görə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycanla Türkiyə arasında mədəniyyət, kitabxana sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, zəngin tarixi ilə tanınan Qarabağa həsr olunmuş filmlərin çəkilməsi, ortaq mədəni irsin qorunması, qarşılıqlı uzunmüddətli təlimlərin keçirilməsi, tarixi abidələrin tədqiq olunması ilə bağlı fikir mübadiləsi aparılıb. Digər layihələrin icrası ilə bağlı birgə fəaliyyət planının hazırlanması məsələləri müzakirə edilib.

Şərəf Ataş qəbula görə Anar Kərimova təşəkkür edib, iki ölkə arasında tarixən mövcud olan dostluq və qardaşlıq münasibətlərinin mədəniyyət sahəsində əməkdaşlıqda da ön planda olduğunu və Yunus Əmrə İnstitutu ilə Mədəniyyət Nazirliyi arasında birgə fəaliyyətin bundan sonra da uğurla davam etdirməyə hazır olduqlarını bildirib.

Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Əcnəbi jurnalistlər Ermənistanın Gəncədə törətdiyi hərbi cinayətlərlə tanış olublar

Avqustun 1-də xarici media nümayəndələrinin Gəncə şəhərinə səfəri təşkil olunub. Səfərin məqsədi əcnəbi jurnalistləri 2020-ci ilin 44 günlük müharibəsi zamanı – oktyabrın 11-də və 17-də cəbhə zonasından kənarda yerləşən Gəncədə Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Qonaqlara məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, müvafiq konvensiyaları pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub və onlardan 6-sı uşaqdır. Atəş nəticəsində 142 nəfər yaralanıb.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb.

# Kino Gününün gecəsi – peşə bayramında dörd premyera

## "Kino Agentliyinin yaradılması istiqamətində işlər həyata keçirilir"

əvvəli səh. 1-də

Anar Kərimov diqqətə çatdırdı ki, Azərbaycan kinosu zəngin ənənələrə malikdir və Mədəniyyət Nazirliyi olaraq məqsədimiz kino sənətini inkişaf etdirmək və bu ənənəni yaşatmaqdır:






"Hazırda nazirlik kino ənənələrini daha da irəli aparmaq üçün müxtəlif layihələr həyata keçirir. Pandemiya dövrünə baxmayaraq, qısa müddət ərzində bir neçə layihə artıq reallaşdırılıb. Bu layihələrdən biri də "Böyük Qayıdış" film ssenariləri müsabiqəsi idi. Vətənpərvərlik ruhunun yüksəldilməsi və Qarabağımıza qayıdış məqsədli bu müsabiqə uğurla başa çatdı. Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq Azərbaycan Film Komissiyası yaradıldı. Hazırda Kino Agentliyinin yaradılması istiqamətində işlər həyata keçirilir. Qısaca olaraq demək istərdim ki, bütün bu fəaliyyətin əsas məqsədi Azərbaycanda zəngin ənənələrə malik olan kino sənayesinin daha da inkişaf etdirilməsinə nail olmaq və onu dünyada rəqabətli bir sənayeyə çevirməkdir.

Kino Gününü bu gün biz ənənəvi qaydada deyil, açıq havada keçirməyi qərara aldıq. Bu da daha çox tamaşaçının filmləri izləməsinə imkan yaradır. Bir daha Milli Kino Günü münasibətilə bu sahədə çalışan insanları təbrik edirəm. YARAT Müasir İncəsənət Məkanına bizə yaratdığı fürsətə görə təşəkkürümü bildirirəm".

YARAT Müasir İncəsənət Məkanı İctimai proqramlar departamentinin rəhbəri Ülviyyə Axundova Mədəniyyət Nazirliyi ilə birgə əməkdaşlıqdan məmnunluqlarını ifadə etdi və Kino Günü münasibətilə tədbir iştirakçılarına təbriklərini çatdırdı.

***

Sonra səhnəyə nümayiş olunacaq ilk filmin yaradıcı heyəti dəvət edildi. Rejissor Əli-Səttar Quliyev çəkdiyi "Olimpiya" filmi barədə məlumat verdi. Qeyd etdi ki, filmin çəkilişlərinə ötən il başlanılıb. İlk olaraq filmin qısametrajlı bir formatda çəkilməsi nəzərdə tutulsa da, sonradan xronometrajı artırmaq qərara alınıb. Filmin "sountrack"ı isə tam olaraq müəllif musiqisidir.

Çıxışlardan sonra filmlər nümayiş olundu. "Olimpiya" melodramı bir idmançının həyatından bəhs edir. Bu fərqli həyat hekayəsi 1980-ci ildə SSRİ-nin paytaxtı Moskva şəhərində başlayır, 2015-ci ildə Azərbaycanın mənzərəli şimal-qərb bölgələrindən birində davam edir və uzaq Kubada sona çatır. Moskva Olimpiadasının bürünc mükafatçısı olan İlqar Süleymanov uzun müddətdə peşəkar idmandan uzaqlaşıb, doğma qəsəbəsində sakit həyat sürür. O, yerli orta məktəbdə bədən tərbiyəsi müəllimidir. Günlərin bir günü İlqarın evinin qapısı döyülür və bununla həyatı tamamilə dəyişir...

Daha sonra nümayiş olunan "Daxildəki ada" filmi Azərbaycan-Fransa birgə istehsalıdır. Xronometrajı 100 dəqiqə olan ekran əsərinin rejissoru Rüfət Həsənovdur. Filmin süjeti Seymur Tahirbəyov adlı qrossmeysterin həyatı üzərində qurulub. O, karyerasının ən önəmli oyunundan bir necə həftə öncə özünü kəşf etmək məqsədilə xəlvətcə yalnız bir nəfər sakini olan adaya yola düşür...

Rejissor Teymur Hacıyevin12 dəqiqəlik "Axşama doğru" filmi ölkəmizdə istehsal olunub. Film ailə məclisində iştirak etmək üçün şəhər kənarına çıxan cütlükdən bəhs edir. Məişət məsələləri onları dayanmağa və hiss olunan, lakin gözlənilməyən reallığı kəşf etməyə sövq edir.

"Kinosevərlər gecəsi"nin son 20 dəqiqəsi "Quxuroba" filminə ayrılmışdı. Dram janrında çəkilən ekran əsəri ötən il ölkəmizdə lentə alınıb. Taksi sürücüsü Rasim müdirindən çox vacib bir tapşırıq alır: o, şəhər kənarındakı ucqar bir kəndə gəlinlik paltarı çatdırmalıdır...

Qeyd edək ki, filmlər Azərbaycan dilində (ingilis dilində altyazı ilə) nümayiş olunurdu. "Kinosevərlər gecəsi" tamaşaçılar və paytaxt sakinləri tərəfindən böyük maraqla qarşılandı.

**LALƏ**

# Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının bayram tədbiri

Avqustun 2-də Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının (ARKİ) təşkilatçılığı ilə Milli Kino Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan kinosunun inkişafında xüsusi xidmətləri olmuş və bu il haqq dünyasına qovuşmuş görkəmli rejissor, Xalq artisti Eldar Quliyevin xatirəsinə həsr olunmuş videoçarx təqdim edilib.

ARKİ-nin sədri, Xalq artisti Şəfiqə Məmmədova çıxış edərək bildirib ki, ötən il ərzində kinomuzun bir neçə görkəmli nümayəndəsi də dünyasını dəyişib və onların xatirəsi daim əziz tutulacaq. O, dövlət tərəfindən kino işçilərinə göstərilən diqqət və qayğıdan bəhs edərək, rəhbərlik etdiyi qurum tərəfindən də hər il yubileyləri olan kino xadimlərinə, həmçinin veteran sənətkarlara mükafatların verildiyini deyib.

Tədbirdə çıxış edən Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti Azər Paşa Nemətov kino işçilərini peşə bayramı münasibətilə təbrik edib. O, ümummilli lider Heydər Əliyevin fərmanı ilə təsis olunan əlamətdar günün artıq 21 ildir kino işçilərinin peşə bayramı kimi qeyd olunduğunu deyib.

Daha sonra Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının 2012-ci ildə təsis etdiyi Milli Kino Mükafatı növbəti laureata təqdim olunub. Bu il mükafata Azərbaycan kinematoqrafiyasına verdiyi töhfələrə görə tanınmış kinooperator, Əməkdar incəsənət xadimi Rafael Qəmbərov layiq görülüb.




Mərasimdə ARKİ-nin elan etdiyi "Qarabağ Azərbaycandır!" ssenari müsabiqəsinin qalibləri də mükafatlandırılıb. Müsabiqədə "Ən yaxşı tammetrajlı film ssenarisi" üzrə Elnur Rzayev ("Xəzər dalğası"), "Ən yaxşı qısametrajlı film ssenarisi" üzrə Leyla Nəsibli ("Xarıbülbül") qalib olub.

# AKİ də mükafatçılarını elan edib

Ölkəmizdə kino sahəsində fəaliyyət göstərən digər qurum – Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) da Kino Günündə ənənəvi mükafatının qaliblərini elan edib.

AKİ-dən verilən məlumata görə, Emil Quliyev "Pərdə" trilogiyasında sosial-mənəvi problemlərin uğurlu kino həllinə, Nəriman Əbdülrəhmanlı Azərbaycan kino salnaməsinin yaradılmasında xidmətlərinə, rejissor Hilal Baydarov "Səpələnmiş ölümlər arasında" filmində obrazların poetik vizual həllində uğurlarına görə təltif olunublar.

AKİ-nin məlumatında o da qeyd olunur ki, keçən kino mövsümünü analiz edərkən və qaliblər seçərkən sahənin inkişafına səbəb ola biləcək tendensiyaları dəstəkləməyi əsas götürüblər.

# Bakı Beynəlxalq Qısa Filmlər Festivalı 12-ci dəfə keçiriləcək

12-ci Bakı Beynəlxalq Qısa Filmlər Festivalı bu il noyabrın 12-dən 16-dək keçiriləcək. Festivalın Təşkilat komitəsindən bildirilib ki, artıq filmlərin qəbulu başlanıb.

Yaşı 35-ə qədər olan rejissorlar 35 dəqiqədən çox olmayan qısa filmləri festivalın beynəlxalq, yerli və "Cinemobil" bölmələrinə təqdim edə bilərlər. Filmlərin qəbulu avqustun 25-dək davam edəcək. Seçim komissiyası tərəfindən seçilən filmlər müsabiqə proqramına daxil ediləcək. Kinoforumun proqramı noyabrın 1-də açıqlanacaq.




Yerli müsabiqədə "Ən yaxşı bədii film", "Ən yaxşı sənədli film", "Ən yaxşı animasiya filmi", "Ən yaxşı sosial çarx" nominasiyaları üzrə qaliblərə festivalın mükafatı – "Qızıl nar" təqdim ediləcək.

Qeyd edək ki, "Cinema" Gənc Kinematoqrafçılar Mərkəzinin təsis etdiyi, Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən festivala hər il dünyanın müxtəlif ölkələrindən yüzlərlə film göndərilir. Onların arasında nüfuzlu festivallarda uğur qazanmış ekran əsərləri də yer alır.

# Britaniyalı siyasətçi Qarabağa qayıdışla maraqlanır

Səfərimin məqsədi "Məcburi köçkünlərin təhlükəsiz qayıdışı" layihəsi çərçivəsində regionda təhlükəsizlik və sabitliyin təmin edilməsi, sülhün bərqərar olması və digər prioritet məsələlər üzrə əməkdaşlıq və işbirliyi üçün müzakirələr aparmaqdır.

Ölkəmizdə səfərdə olan Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin sabiq sədri, britaniyalı siyasətçi və hüquqşünas Səccad Heydər Kərim bu fikri avqustun 3-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevlə görüşdə deyib.

Komitənin mətbuat xidmətindən bildirilib ki, qonağa Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qaçqın və məcburi köçkünlərlə iş sahəsində həyata keçirilən dövlət siyasəti barədə məlumat verilib. Bildirilib ki, bu kateqoriyadan olan insanların problemlərinin həlli dövlətimizin başçısının sosial siyasətinin prioritetlərindəndir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva doğma yurdundan didərgin düşmüş insanlara böyük qayğı və diqqət göstərir.

Qeyd olunub ki, məcburi köçkünlərin mütləq əksəriyyəti işğaldan azad edilmiş ərazilərə – öz daimi yaşayış yerlərinə qayıtmaq istəyir. Könüllülük prinsipi ilə həyata keçiriləcək qayıdış prosesi həmin ərazilərdə təhlükəsizlik və layiqli həyat şəraiti təmin edildikdən sonra başlanacaq. Prezidentin tapşırıqlarına əsasən, hazırda dövlət qurumları bununla bağlı məsələləri həll etmək məqsədilə əlaqəli fəaliyyət göstərirlər.

Səccad Heydər Kərim işğaldan azad olunmuş ərazilərə gedəcəyini vurğulayaraq Azərbaycanın mövcud həqiqətləri ilə yaxından tanış olmaq, mövcud reallıqlar şəraitində bölgənin inkişafına töhfə vermək istədiyini diqqətə çatdırıb.

Görüşdə avropalı qonağın Dövlət Komitəsinin fəaliyyəti, məcburi köçkünlərlə bağlı mövcud vəziyyət, onların reinteqrasiyası barədə suallar cavablandırılıb.

# Prodüserlər Gildiyası kino işçilərini əməkdaşlığa çağırır

Ölkəmizdə kino sənətinin inkişafı və kinematoqrafçıların professional fəaliyyəti üçün münbit mühitin yaradılması məqsədilə Azərbaycan Prodüserlər Gildiyası bütün kino işçilərini əməkdaşlığa çağırır.

Gildiyadan bildirilib ki, qurumun 2021-2022-ci illər üçün geniş fəaliyyət proqramı tezliklə kino ictimaiyyətinə təqdim olunacaq.

Qeyd edək ki, Azərbaycan Prodüserlər Gildiyası İdarə Heyətinin yeni sədri seçilib. Quruma rəhbərlik Əməkdar mədəniyyət işçisi Nəriman Məmmədova həvalə olunub. Ondan əvvəl bu vəzifəni Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov icra edib.

Gildiyanın məqsədləri milli kinematoqrafiya sahəsində mütəxəssislərin hazırlanması, televiziya, yayım, kinoteatr, internet şəbəkələri ilə əməkdaşlığın qurulması, milli filmlərin xaricdə nümayişi və satışının təmin olunması, ekran əsərlərinin festivallarda iştirakına dəstək, müəlliflik və mülkiyyət hüquqlarının təmin edilməsidir.

# Niyyət eyni olarsa...

Lənkəran Dövlət Dram Teatrının nümayəndə heyəti Ağdam Dövlət Dram Teatrının qonağı olub. Görüş zamanı teatrlar arasında yaradıcılıq əlaqələri müzakirə olunub.

Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov, Ağdam Dövlət Dram Teatrının direktoru Məhəmməd Hüseynov, Xalq artisti, aktyor Qabil Quliyev, baş rejissor Kərəm Həsənov çıxış edərək teatrlar arasında qarşılıqlı yaradıcı münasibətlərin yaradılmasının əhəmiyyətindən danışıb, hər iki teatra uğurlar diləyiblər.



Sonra iki teatr arasında əməkdaşlıqla bağlı niyyət sazişi imzalanıb. Sazişə əsasən, teatrlar arasında yaradıcı münasibətin qurulması, qarşılıqlı qastrol səfərlərinin təşkili, rejissor və aktyor mübadiləsi, texniki dəstək, yaradıcı görüşlər və təcrübə mübadiləsi nəzərdə tutulur.

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın ilk iclası keçirilib

Xəbər verdiyimiz kimi, 13 və 16 iyul tarixlərində keçirilən seçkilərin nəticəsi olaraq Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın tərkibi formalaşıb. İyulun 30-da Azərbaycan Milli Xalça Muzeyində Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın ilk iclası keçirilib.

İclasda İctimai Şuranın əhəmiyyətindən danışılıb, görüləcək işlər barədə təkliflər dinlənilib.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə iclası açaraq İctimai Şuraya seçkilərin nəticələri barədə məlumat verib. Bildirib ki, seçkilərin ötən ilin sentyabrında keçirilməsi nəzərdə tutulsa da, Vətən müharibəsinin başlaması səbəbindən bu iş təxirə salınıb. Bu ilin iyul ayında seçkilərin birinci və ikinci turu keçirilib, İctimai Şuranın 9 nəfərdən ibarət tərkibi seçilib.

Mədəniyyət naziri Anar Kərimov bildirib ki, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət sayəsində Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının fəaliyyəti genişlənib, QHT-lər dövlət idarəçiliyi və qanun yaradıcılığı prosesinin iştirakçısına çevriliblər. Mədəniyyət Nazirliyinin qeyri-hökumət təşkilatları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıran Anar Kərimov yaradılan İctimai Şuranın bu sahədə görəcəyi işlərin əhəmiyyətindən danışıb. O, nazirliklə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili, onun fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunması, dövlət siyasətinin formalaşması və qərarların qəbulu zamanı ictimai rəyin və vətəndaşların qanuni maraqlarının nəzərə alınması kimi məqsədlərin həyata keçirilməsi istiqamətindəki fəaliyyətlərdə İctimai Şura üzvlərinə uğurlar arzulayıb.



Mədəniyyət Nazirliyi sistemində islahatlardan söz açan Anar Kərimov bildirib ki, nazirlik, keçmiş sovetlər birliyində olduğu kimi, müəssisələrin idarə edilməsilə məşğul olmamalı, ümumilikdə bütün sahələrlə işləməlidir: "Biz beynəlxalq standartlara cavab verən bir idarəçilik qurmalıyıq. Burada şəffaflıq təmin olunmalı, dayanıqlı maliyyələşdirmə və iqtisadi modellər tətbiq edilməli, özəl sektor mədəniyyət sahəsinə cəlb olunmalıdır. Müəssisələr rəqabətli bir sistemə keçsələr, dövlətin mədəniyyət strategiyasına töhfə vermiş olarlar".

Sonra İctimai Şura üzvlərinin təklifləri dinlənilib.

## Bölgələrdən xəbərlər

# Müxtəlif səpkili tədbirlər

Biləsuvar Regional Mədəniyyət İdarəsində yazıçı Gülsüm Adilqızının "Murad ömrü", "Şəhidlik zirvəsinin fatehləri", "Vətən salnaməsinin qəhrəmanları" və "Uşaq dünyam" kitablarının təqdimatı olub.

Ağdaş Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə Nizami Gəncəvinin Ağdaş şəhərindəki abidəsinin ətrafında təmizlik, bərpa və yenidənqurma işləri aparılıb.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Kürdəmir rayon Mədəniyyət Mərkəzinin bir qrup əməkdaşı ilə görüş keçirib. İdarə rəisi çıxışında Mədəniyyət Nazirliyi sistemində aparılan islahatlardan, 2021-ci il üçün qarşıya qoyulan hədəflərdən, "Nizami Gəncəvi İli" çərçivəsində həyata keçiriləcək tədbirlərdən bəhs edib.

Şəki Regional Mədəniyyət İdarəsi Qax rayon Güllük kənd Mədəniyyət evi və kənd kitabxanasının birgə təşkilatçılığı ilə Xalq şairi Bəxtiyar Vahabzadənin (1925-2009) anadan olmasının 96-cı ildönümü münasibətilə "Şam əgər yanmırsa, yaşamır demək" adlı tədbir keçirilib. Qax rayon Əmbərçay kənd klubunda "Milli folklorumuzu və dəyərlərimizi öyrənək" adlı tədbir keçirilib. Oğuz rayon MKS-nin Qumlaq kənd kitabxanasında "Kitabı sizə gətirdik" adlı "nağıl saatı" təşkil edilib.

Masallı Regional Mədəniyyət İdarəsi Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Ulu öndər Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" mövzusunda tədbir keçirilib.

Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir rayon MKS-nin Oxuculara xidmət şöbəsi "Aşıq Ələsgər 200" adlı tədbir keçirib. Göygöl rayon MKS-nin Oxuculara xidmət şöbəsində Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Hər gecəm oldu kədər..." başlığı altında tədbir təşkil olunub.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Abşeron rayon Mədəniyyət Mərkəzində "Gənclər gələcəyimizdir" adlı görüş təşkil edilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Kinomuzun bayramı münasibətilə

2 avqust – Azərbaycan Kinosu Günü bölgələrdə fəaliyyət göstərən mədəniyyət müəssisələrində müxtəlif tədbirlərlə qeyd olunub.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər Mədəniyyət Mərkəzinin nəzdindəki Heydər Əliyev Sarayı Milli Kino Günü münasibətilə videoçarx hazırlayıb.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon MKS-nin kənd kitabxana filialları əlamətdar gün münasibətilə videoçarxlar ərsəyə gətiriblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsi İmişli rayon Mədəniyyət Mərkəzində Azərbaycan Kinosu Günü münasibətilə tədbir təşkil olunub. Mədəniyyət Mərkəzinin direktoru Sərvər Şirinov Azərbaycan kinosunun yaranması haqqında məlumat verib. Daha sonra 1963-cü ildə rejissor Həbib İsmayılovun lentə aldığı milli kinomuzun qiymətli nümunələrindən olan "Böyük dayaq" filmi nümayiş etdirilib.



Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Mədəniyyət Mərkəzində əlamətdar günlə bağlı tədbir keçirilib. Mərkəzin tamaşa salonunda baş tutan tədbirdə Azərbaycan kinosunun dünəni, bu günü haqqında danışılıb, "Azərbaycan kinosu və tarix", "Filmlərimizdə estetik musiqi və Emin Sabitoğlu" mövzularında çıxışlar dinlənilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində də Azərbaycan Kinosu Günü qeyd olunub. Rayon İcra Hakimiyyəti başçısının müavini Günel Nurəddinova çıxış edərək ölkəmizdə kino sənətinin inkişaf tarixindən, bu sahəyə göstərilən dövlət qayğısından danışıb. Tədbirdə Xaçmaz rayonunda çəkilən filmlərdən fraqmentlər, xaçmazlı aktyor Nadir Əsgərov (Nuruşbala) haqqında süjet, xaçmazlı rejissor Asif Abramovun çəkdiyi film və seriallardan fraqmentlər, həmçinin həmin filmlərdə rol alan aktyorlar haqqında kadrlar nümayiş etdirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə çıxış edən idarənin rəisi Fərid Qurbanzadə Azərbaycanda kino sənətinin bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçdiyini və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynadığını diqqətə çatdırıb. Digər çıxış edənlər də kino salnaməmizin zənginliyindən bəhs ediblər. Çıxışlardan sonra Mədəniyyət Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasında istehsal edilmiş "Azərbaycan kinosunun yaranması və inkişafı" adlı sənədli film nümayiş olunub.




# "Mənim qürurum – ana dilim"



*Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS Mərkəzi Kitabxananın Uşaq şöbəsində "Ana dilimiz milli varlığımızdır" mövzusunda tədbir keçirib.*

Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir rayon Mərkəzi Kitabxanasında keçirilən "Bu dil dahilərin dilidir" adlı tədbirdə Azərbaycan əlifbasının və dilinin tarixi, keçdiyi inkişaf yolu, dilimizin zənginliyi, dövlətimizin ana dilimizə göstərdiyi qayğı haqqında məlumat verilib. Ana dilimizə həsr edilmiş şeirlər söylənilib. Tədbir iştirakçıları əlamətdar günlə bağlı kitab sərgisi ilə tanış olublar.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mərkəzi Kitabxanasında "1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür" adlı tədbir keçirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Heydər Əliyev Mərkəzində "Ana dilimizə Heydər Əliyev qayğısı" mövzusunda videokonfrans keçirilib. Göyçay rayon Heydər Əliyev Mərkəzində isə dilimizin bayramı münasibətilə dəyirmi masa təşkil olunub.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzində 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd olunub. Zaqatala rayon Heydər Əliyev Mərkəzi, Mərkəzi Kitabxananın Uşaq şöbəsi və Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Mənim qürurum – ana dilim" adlı tədbir gerçəkləşib. Oğuz rayonunun Bayan kənd kitabxanasında, açıq havada "1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür" başlığı altında tədbir təşkil edilib.



# Bizə Qələbə bəxş edənlər



*Kürdəmir Regional Mədəniyyət İdarəsinin rəisi Faiq Xudanlı Ermənistan silahlı qüvvələrinin Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqelərini atəşə tutması nəticəsində şəhid olmuş gizir Fərman Yaqublunun ailə üzvləri ilə görüş keçirib.*

Ağstafa Regional Mədəniyyət İdarəsinin dəstəyi, Ağstafa rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Vətən müharibəsində həlak olmuş ağstafalı şəhidlərin və qazilərin övladlarının asudə vaxtlarının səmərəli təşkili ilə əlaqədar "Çörək" adlı kukla tamaşası təşkil olunub. Tədbirdə çıxış edən regional idarənin rəisi Elbəy Əli uşaqların sağlam və firavan böyüməsinin, rifahlarının yüksəldilməsinin dövlət siyasətinin başlıca vəzifələrindən biri olduğunu qeyd edib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Alekseyevka kənd kitabxana filialının əməkdaşları Vətən müharibəsi şəhidi Ülvi Məmmədovun doğum günü ilə əlaqədar ailəsini ziyarət ediblər. MKS-nin Qorxmazoba kənd kitabxana filialında "Şəhidlər ölməz, Vətən bölünməz" mövzusunda tədbir keçirilib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrında Vətən müharibəsi şəhidlərinə ithaf olunmuş virtual ədəbi-bədii kompozisiya təqdim olunub. "Haray" adlı kompozisiya teatrın yaradıcı kollektivi və Masallı Dövlət Regional Kollecinin müəllim və tələbələrinin birgə əməyi ilə ərsəyə gətirilib. Ədəbi-bədii kompozisiyada tələbələr şəhidlik zirvəsinə yüksəlmiş İbrahim Rükabzadə, İbrahim Lələyev, Sübhan Həsənov, Ramazan Vəliyev və Rafael Hüseynovun həyatı və şərəfli döyüş yolundan bəhs edən monoloqlar deyiblər. Kompozisiyanın quruluşçu rejissoru Cəmaləddin Əliyev, musiqi və səhnə tərtibatçıları Ruslan Zahidov və Elsevər Əliyevdir. R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Tovuz döyüşləri (2020, iyul) zamanı şəhid olmuş igid oğullarımızın xatirəsinə həsr olunan "Unudulmaz tarix" adlı sərginin bağlanış mərasimi keçirilib.




# "Qarabağımızı yenidən quracağıq"

## Xaricdə təhsil almış məzunların Ağdama səfəri



"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" və "Hökumətlərarası Təqaüd Proqramları" (HTP) çərçivəsində dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələrində təhsil almış bir qrup məzunun iyulun 31-də işğaldan azad olunmuş Ağdam rayonuna səfəri təşkil olunub.

Təhsil Nazirliyinin təşkilatçılığı ilə reallaşan səfərdə 71 nəfər Dövlət Proqramı və HTP məzunu iştirak edib. Onlar dünyanın 17 ölkəsinin (ABŞ, Almaniya, Avstraliya, Böyük Britaniya, Belçika, Çexiya, Çin, İsveç, İsveçrə, İtaliya, Kanada, Litva, Macarıstan, Niderland Krallığı, Polşa, Rusiya, Türkiyə) 60-a yaxın nüfuzlu ali təhsil müəssisəsində təhsil alıblar və hazırda Azərbaycanda müxtəlif dövlət qurumlarında və özəl şirkətlərdə çalışırlar.

Səfər proqramı Ağdam rayonunda Pənahəli xanın imarəti, İmarət stadionu, Ağdam Cümə və Qiyaslı məscidləri, Ağdam Dövlət Dram Teatrının xarabalıqları və erməni vandalizminin izi qalan digər məkanları əhatə edib. Səfər iştirakçılarına yenidən qurulacaq Ağdamın baş planı barədə məlumat da verilib. Məzunlar tərəfindən Ağdam Dövlət Dram Teatrı binasının qalıqları qarşısında skripka və tarda musiqi parçaları ifa olunub. "Nargis" jurnalının "Karabakh is Azerbaijan" adlı xüsusi buraxılışı məzunlara təqdim edilib.

Türkiyənin Bilkent Universitetində təhsil almış Zöhrə Qaragöz gördüyü mənzərənin onu dəhşətə gətirdiyini söyləyib: "Uşaq vaxtından mən Qarabağın necə gözəl bir guşə olduğunu bilirdim. Amma indi görürəm ki, o gözəllikdən əsər-əlamət qalmayıb. İnanıram ki, törədilən bu vandalizm aktları cəzasız qalmayacaq və biz əksinə, daha da güclü və inamla Qarabağımızı yenidən quracağıq".

Çin Xalq Respublikası UİBE Universitetində təhsilini başa vuran Bəxtiyar İslamov deyib: "Hər birimizin təhsil aldığımız ölkələrdə öz əhatəmiz var. Biz xaricdəki dostlarımız vasitəsilə doğma torpaqlarımızda törədilən bu vəhşilikləri bütün dünyaya çatdıracağıq".

Səfərin sonunda Sumqayıt şəhər 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin tələbəsi Gülşən Baxşəliyeva tərəfindən çəkilmiş və 44 günlük Vətən müharibəsinin xüsusi elementlərini özündə ehtiva edən rəsm əsəri Ağdam rayonunun işğaldan azad edilmiş hissəsində Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynova təqdim olunub, xatirə şəkli çəkdirilib.

Qeyd edək ki, dövlət hesabına xaricdə təhsil almış gənclər Vətən müharibəsi zamanı hərbçilərimizə tibbi xidmətin göstərilməsinə, həmçinin sosial media hesablarında, ictimai və diplomatik platformalarda ölkəmizin haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasına öz töhfələrini veriblər.

# "Kəndlərdə mədəniyyət günləri" davam edir




Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə reallaşdırılan "Kəndlərdə mədəniyyət günləri" layihəsi davam edir. Layihənin növbəti tədbiri Xaçmaz rayonunun Qalağan kəndində təşkil olunub.

"Tarixi dəyişən böyük Qələbə" mövzusunda keçirilən tədbirdə mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd ağsaqqalları, yerli yazarlar iştirak edib. Tədbir iştirakçıları öncə Nizami Gəncəvinin həyat və yaradıcılığını əks etdirən kitab, rəsm və əl işləri, yerli mətbəx nümunələrindən ibarət sərgilərlə tanış olublar.

Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov bildirib ki, belə tədbirlərin keçirilməsində məqsəd gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsidir.

Tədbirin bədii hissəsində ədəbi-bədii kompozisiyalar nümayiş etdirilib. Sonda Xaçmaz Regional Mədəniyyət İdarəsi tərəfindən bir qrup fəal gəncə fəxri fərmanlar təqdim edilib.

# Qəmbər Hüseynlinin vəfatının ildönümündə anım tədbiri

Gəncədə görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Hüseynlinin (1916–1961) vəfatının 60-cı ildönümü münasibətilə anım tədbiri keçirilib.

İyulun 31-də keçirilən tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, bəstəkarın ailə üzvləri və şəhər rəsmiləri iştirak ediblər.

Sənətkarın abidəsi önündə təşkil olunan anım mərasimində icra başçısı Niyazi Bayramov çıxış edərək Gəncənin milli mədəniyyət, elm, incəsənət mərkəzi olduğunu deyib, bəstəkarın əldə etdiyi nailiyyətlərdən danışıb, onun xatirəsinin yaşadıldığını vurğulayıb. Şəhər rəhbəri



Qəmbər Hüseynlinin məzarının yerləşdiyi ərazinin əsaslı şəkildə təmir olunacağını da diqqətə çatdırıb.

Bəstəkarın ailə üzvləri Qəmbər Hüseynlinin yaradıcılığına göstərilən diqqətə görə ölkə başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və şəhər rəhbərliyinə təşəkkürlərini bildirib, sənətkar haqqında xatirələrini bölüşüblər.

Tədbirin bədii hissəsində Gəncə Dövlət Filarmoniyası Xalq Çalğı Alətləri Ansamblının müşayiəti ilə Əməkdar artist Kəmalə Tağızadə, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova bəstəkarın sevilən əsərlərindən "Ay işığında" və "İlk məhəbbətim" mahnılarını səsləndiriblər.

# Maestronun xatirəsi yad edilib

Avqustun 2-də görkəmli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, C.Nehru adına Beynəlxalq mükafat laureatı, Sosialist Əməyi Qəhrəmanı Niyazinin vəfatından 37 il ötdü.



Həmin gün Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin və onun filialı – Niyazinin Mənzil-Muzeyinin əməkdaşları, musiqiçilər və ictimaiyyətin nümayəndələri Fəxri xiyabanda sənətkarın məzarını və Bakı şəhərindəki abidəsini ziyarət ediblər.

Maestronun anım günündə mənzil-muzeyində "açıq qapı" günü elan edilib. Niyazi haqqında müxtəlif illərdə çəkilmiş sənədli filmlər, videokonsertlər, musiqisinin müəllifi olduğu filmlər nümayiş olunub. Muzeyə gələn ziyarətçilərə Niyazinin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib.

Həmçinin Əməkdar mədəniyyət işçisi, görkəmli publisist Fazil Rəhmanzadənin "Ən böyük Niyazi, ondan böyük yox!..." kitabının təqdimatı da keçirilib.



# Amalımız YAŞATmaq olarsa...

Atalar misalıdır, "Yaxşılıq qapı açar, məhəbbət bu qapıdan içəri girər". Yəqin sonra da bütün dünya gülər, kainat gözəlləşər, ürəyin dünya boyda olar, arzuların qol-qanad açar və səni bəşərin ən bəxtiyar, məsum varlığına çevirər.

Son günlər məhz bu hisslərin, daha doğrusu, bu hissləri hiss edənlərin təsirindəyəm. Vətən torpaqlarını yağı işğalından azad edərkən canlarını fəda edib, övladlarının həsrəti, nisgili, bir gülüşünün, bir baxışının arzusunda ruhu əbədiyyətə qovuşan şəhid valideynlərin...

Şəhid övladları üçün təşkil olunan fərqli adlı, eyni məramlı düşərgələrdə olarkən uşaqların üzlərinə, göz bəbəklərinə zillənir baxışlarım. Elə bil nə isə axtarıram və onu tapacağıma inanıram. Əslində, nəyi gəzdiyimi də yaxşı bilirəm. Sevgini, məhəbbəti axtarıram və tapanda dünyanın ən xoşbəxt adamı kimi bu işə qol qoyanları – müzəffər şəhidlərimizin məsum balalarına sevinc, gülüş bəxş edənləri xəyalən bağrıma basıram, gül-çiçək yağışına qərq edirəm...

Bir çoxunuzun da bildiyi kimi, "YAŞAT" Fondu və "ASAN Könüllüləri"nin birgə təşkilatçılığı ilə şəhid övladları üçün yay düşərgələri keçirilir. 12 iyul tarixindən başlanan həftəlik düşərgələr yaş qruplarına (8-11, 12-14, 15-18) görə bölünüb və ümumilikdə 300-dən artıq uşağı əhatə edərək avqust ayının sonuna qədər davam edəcək.

Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, tamaşalar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, konsert proqramlarının keçirilməsi nəzərdə tutulub.

Layihənin ikinci həftəsində – 8-11 yaş qrupunda olan balacaların düşərgəsində mən də qonaq olmaq imkanı qazandım. Səfalı Lənkəranın ən gözəl yerlərindən birində – Gərmətük qəsəbəsində yerləşən "Springs Wellness Resort" hotelində təşkil olunan düşərgənin ikinci günü də zəngin, qonaq-qaralı idi.

Günün ilk görüşü psixoloqla söhbət, art-terapiya idi və balacalar peşəkar uşaq psixoloqu və pedaqoqlarının iştirakı ilə təlimdə iştirak etdilər.

Öz uşaq dünyalarında, qayğısız, təmənnasız aləmlərində olan bu balacalar üz-gözlərinə hopan sevincin, qarşılığını gördükləri sevginin müşayiətində qaça-qaça tamaşanın göstəriləcəyi konfrans zalına yığışdılar. Üç sıra ilə düzülmüş oturacaqlarda ən ön sıraya keçmək, aktyora, onlar üçün əsrarəngiz görünən kiçik səhnədəki böyük sandığa daha yaxın olmaq istəyirdilər. Əllərini çənələrində birləşdirib heyrətlə sandıq qarşısında dayanan, lap divin suyun qarşısını kəsdiyi kimi sandığın önünü kəsən teatrın çıxışa hazırlaşan əməkdaşlarını süzdülər. Onlar da bunu yaxşı başa düşdüklərindən tələsik sandıq önündən çəkildilər, nağılla realıq arasındakı xəyali pərdəni açdılar.

Beləcə, onlarla muncuq kimi parlaq qara, mavi, qonur göz sandığa, səhnəyə dikildi. Tamaşa başladı.

Onlarla görüşə bu il 90 illik yubileyini qeyd edən Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı gəlmişdi. Bundan əvvəl də bu kimi sosial yönümlü layihələrdə həvəslə çıxışlar edən kuklaçılar bu dəfə repertuarındakı baxımlı səhnə nümunələrindən olan "Şəngülüm, Məngülüm" tamaşasını göstərirdilər.

"Şəngülüm, Şüngülüm və Məngülüm" xalq nağılı əsasında səhnələşdirilən tamaşaya teatrın rejissoru Anar Məmmədov quruluş verib. Quruluşçu rəssamı İqbal Əliyev, bəstəkarı Elza Seyidcahandır. Mahnı mətnləri Mikayıl Müşfiqin xalq nağılı əsasında yazdığı eyniadlı mənzum nağılından seçilib.

Müxtəlif kukla texnikalarının tətbiq olunduğu tamaşada tək ifaçı (aktrisa Ülviyyə Əliyeva) həm parket, həm də əlcək kuklalardan istifadə etməklə səhnədə altı obrazda – Nağılçı, Dəmirçi, Ana keçi, Şəngülüm, Məngülüm və Canavar – çıxış edirdi. Uşaqlara unudulmaz anlar yaşadan istedadlı aktrisa personajlarının dilindən maraqlı, gülməli improvizələr edir və tamaşaçıları ustalıqla ələ ala bilirdi. Arabir nağılçı kimi onların arasında dolaşır və bütün uşaqların bilməli olduqları davranış qaydalarına qədər vacib vərdişlərdən də danışırdı.

İnteraktiv oyun üslublu tamaşa uşaqların istədiyi kimi – xeyirin şər üzərində zəfəri, sevginin, mərhəmətin qələbəsi ilə bitdi.

Ardınca mahnıların sədası uşaqların gülüşlərinə qarışıb ətrafa səpələndi. Hə, axı bayram bayrama qarışmışdı. Şəhidlərimizin yadigarlarından Mədinənin 8 yaşı bu günə təsadüf etmişdi.





Cingiltili, səs-sədalı təbriklər, xoş sözlər, hədiyyə çələngləri Mədinəni az qala göyün yeddinci qatına qaldırmışdı. Elə sevinir, elə gülürdü ki, sanki bütün ulduzlar onun başı üzərində parıldayırdı.

Təşkilatçılar hər şeyi detallı düşünmüşdülər. Kuklaçılar tamaşadan sonra uşaqlarla qruplar şəklində oyunlar, yarışlar da keçirdilər və bütün balacalar hədiyyələrlə zalı tərk etdilər.

Tamaşanı bəhanə edib, az da olsa, onların dünyalarına daxil olmaq istədim. İlk həmsöhbətim isə ad günü olan Mədinə oldu. Şəhid kəşfiyyatçı Ariz Məhərrəmovun övladı: "Mən çox sevinirəm. Bu qəşəng və maraqlı ad günü idi. Tamaşa da çox xoşuma gəldi. Bura çox gözəldi. Darıxmıram, çoxlu dostlarım var artıq. Hələ bir nəfər də adaşım var. Hamınız sağ olun, bu günü unutmayacam. Evimizə qayıdanda hamıya ad günümdən, Şəngülümdən, dostlarımdan danışacam"...

Diktofonu ona uzadanda özünü təqdim etməsini istəməmişdim. Sadəcə, "Mədinə, ad günündü, təbriklər xoşuna gəldi" deyə soruşmuşdum. O, təəssüratlarının ardınca sağollaşıb getmək istəyirdi ki, birdən ayaq saxladı, üzümə baxdı və "Mənim atam da qəhrəmandı, çoxlu düşmənlə savaşıb, hamını xilas edib, onu sən də tanıyırsan?" deyə soruşdu və təkidlə cavab gözlədi. Özümü itirmədim və "Əlbəttə, tanıyıram, sən atana çox bənzəyirsən" dedim. Gözləri parıldadı, inci kimi dişləri yenidən göründü və təşəkkür edib uşaqlara tərəf qaçdı.

"O mənim bacımdı, biz ikimiz gəlmişik" deyən dik baxışlı, qarabəniz oğlan şəstlə üzümə baxdı. Mədinənin qardaşı, şəhid qardaşımız Arizin oğlu İsmayıl idi. Müsahibə vermək istəməsə də, təşəkkür edib getdi. Hə, bizi qonaq çağırmağı da unutmadı.

Hələ birinci düşərgədə dostlaşdığım və adının son hərfini çətinliklə "N"dan "Z"ya (təbii ki, bu onunla söhbət üçün bəhanəm idi) keçirdiyim Pərviz qucağıma atıldı. Könüllü müsahibə vermək istəyirdi, deyəsən. İlk görüşümüzdə razılaşmasa da, bu dəfə özü danışmağa başladı: "Şəhid Fariz Babayevin oğlu Pərvizəm, Pərvin yox ha, Pərviz. Füzuli rayonunun Bala Bəhmənli kəndindən gəlmişəm. Hər iki düşərgə çox xoşuma gəlir. Xeyli əylənirəm, amma kəndimiz üçün darıxıram". "Qarabağ və şəhid sözləri sənin üçün nə ifadə edir" sualıma düşünmədən "Şəhidlik heç kimin qalxa bilmədiyi zirvədir. Qarabağ isə Vətənimdi, çox sevdiyim vətənim. Atam Daşaltıda şəhid olub, mən ora gedəcəm. Atam oradan evə tez-tez zəng edirdi. Deyirdi bura çox gözəldi, səni də gətirəcəm, burada çoxlu oyunlar oynayarıq. Mən bacım Fidanı da götürüb ora gedəcəm, birlikdə oyunlar oynayıb atamı sevindirəcəm".

Ağappaq bir əl çiynimə toxundu və dikələndə onu gördüm. Həmən tanıdım. Atasının şəhadətindən sonra dünyaya gələn Alparslan qardaşı ilə çəkilən fotoları sosial şəbəkələri bəzəmişdi. Üzümə baxıb gülümsündü: "Mən Əsnadam, Camal İsmayılovun qızıyam" dedi, səsi titrədi, susdu. Dodağını dişləyib "Atam çox güclü idi. Düşmənlər ondan qorxurdu. Həmişə qalib gəlirdi, axı çox güclü idi. O bizi – məni, Əsməti, hələ doğulmayan qardaşımız Alparslanı çox sevirdi. Bilirsən qardaşıma bu adı atam vermişdi. İstəyirdi güclü olsun".

Onunla xeyli danışdım, eşitmək istədiyi gerçəkləri bir daha təkrarladım. Telefonumdan axtarış verib atasının necə igid, yenilməz olduğu haqqında yazıları göstərdim, şəkillərinə baxdıq. Dəqiqələr sonra baxışlarımız toqquşdu və bulud kimi dopdolu gözlər sevincdən parıldayırdı. Elə bil məhz mənim və ətrafımızda bizə qulaq asan uşaqların, onları müşayiət edən könlü gözəl könüllü gənclərin məhz atasını tanımalarını istəyirdi.

Ataların "Ot kökü üstündə bitər" məsəli burada lap yerinə düşdü. Xüsusi Təyinatlı Qüvvələrin baş giziri və qrup komandiri, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Cavid İsmayılovun davamçısı məhz belə qürurlu övlad olmalıymış.

Kövrək, qürurlu, bir az da əmin uşaqların söhbətini "YAŞAT" Fondunun müdir müavini Rəbiyyə Cəfərovanın onlara qoşulması kəsdi. Balacalar mehriban təbəssümlə onlara baxan qadına yaxınlaşıb, dövrəyə aldılar.

Fürsətdən istifadə edib Rəbiyyə xanımdan bu və ümumən qarşıdakı layihələr, uşaqlarla bağlı aksiyalar barədə soruşdum.

Vətən müharibəsi şəhidlərinin yadigarları üçün təşkil edilən layihə barədə bunları dedi: "YAŞAT" Fondunun fəaliyyət istiqamətlərindən biri də təhsil, peşəkar inkişaf, şəxsi bacarıqların artırılmasıdır. Burada uşaqların bir-birinə qaynayıb-qarışmasına, inteqrasiyasına, birgə maraqlarının, məşğuliyyətlərinin formalaşmasına çalışırıq. İndi çətin dönəmdir. Onlar psixoloji baxımdan mürəkkəb mərhələni keçirlər. Unudulmaq istəmirlər, daxilən sevgi, qayğı ilə əhatəyə ehtiyac duyurlar. Biz də düşündük ki, istənilən prosesdə, əsas da müharibədə məhz ən çox zərər görən uşaqlar olur. Qayğısız uşaqlıqlarını yaşamalı olduqları vaxtda ən böyük zərbəni məhz onlar alır və valideyn itkisi ilə üz-üzə qalırlar. Bu ağır yük onların çiyinlərinə düşür. Biz onlar üçün mədəni proqramı qurarkən diqqətlə yanaşır, məhz bu psixoloji ağırlığı nəzərə alırıq. Hər şey detallı düşünülür və komanda şəklində müzakirələr aparırıq. Uşaqları yormadan, onları nə isə öyrətməklə əyləndirməyin yollarını axtarırıq. Bildiyiniz kimi, "YAŞAT" Fondu əməkdaşlarının əksəriyyəti şəhid və qazilərin övladlarıdır. Odur ki, bizlər o uşaqları yaxşı başa düşür və az-çox nə istədiklərini bilirik, onları duyub hərəkət etməyə çalışırıq".

...Artıq günəş sıralanmış əzəmətli Talış dağları arxasına keçir və uzun yol bizi saf, təmiz, həlim adamlardan ayırır...

**Həmidə NİZAMİQIZI**

# On gənc "Səhnədə" müsabiqəsinin finalında

İfaçılıq istedadı olan gənclər üçün elan edilən "Səhnədə" müsabiqəsinin canlı dinləmələri yekunlaşıb.



Azərbaycan Respublikasının Gənclər Fondundan bildiriblər ki, müsabiqənin məqsədi paytaxt və regionlarda xüsusi istedada malik gənc ifaçıları aşkar etmək, onların qabiliyyətlərinin inkişafı və sənətdə öz yerini tapmasına dəstək göstərməkdir.

Müsabiqənin Lənkəran, Quba, Şəki, Gəncə, Yevlax, Bakı və Naxçıvan şəhərlərində keçirilən kastinq mərhələsində uğur qazanan 100-dən çox gənc münsiflər heyəti qarşısında çıxış edərək ifaçılıq bacarıqlarını sərgiləyiblər.

Musiqi sahəsində tanınan şəxslər – Sevda Ələkbərzadə, Pərviz İsaqov (PRoMete) və hər kastinq üzrə dəvət olunan qonaqlar – İlhamə Qasımova, Zamiq Hüseynov, Aytən İsmixanova, Natəvan Həbibi, Muxtar Abseynov, Nigar Kərimbəyova və türkiyəli müğənni Ferman Akgüldən ibarət münsiflər heyəti "Səhnədə" müsabiqəsinin final mərhələsi üçün 10 gənci seçib.

İstedadı ilə münsiflərin diqqətini cəlb edən və seçim meyarlarına uyğun gələn bu gənclərin müsabiqənin Bakıda keçiriləcək qala-konsertində çıxış etmək şansı olacaq. Konsertin yekununda münsiflərin qərarı ilə seçiləcək 3 gənclə "RÄNG" leybli arasında birillik prodüserlik müqaviləsi imzalanacaq. Müsabiqənin kastinq mərhələləri və böyük finalı Azərbaycan Televiziyasında (AzTV) teleşou formatında yayımlanacaq.

"Səhnədə" gənc istedadlar müsabiqəsi Gənclər Fondunun dəstəyi, Mədəniyyət Nazirliyinin, "RÄNG" leyblinin tərəfdaşlığı və "GəncSİMA" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilir.

# Sən nəyi seçirsən?

## "Məryəm" filmi çətin seçim haqqındadır

Xəbər verdiyimiz kimi, rejissor Elçin Musaoğlunun "Məryəm" filminin çəkilişləri davam edir. Çəkilişlərinə may ayından başlanılan ekran əsərinin ilin sonunadək tamaşaçılara təqdim olunması nəzərdə tutulub.

Dram janrında olan filmin süjet xətti ölmüş bildiyi atasını görmək üçün uzun illər sonra Azərbaycana gələn və onu ucqar rayonda yerləşən ruhi-əsəb xəstəxanasında tapan Məryəm adlı qızdan bəhs edir.

Film haqqında məlumat verən Elçin Musaoğlu deyib: "Ssenarinin yaşı çoxdur. 10 il əvvəl bir dostum bu ideyanı mənə vermişdi. Mən də beynimin bir küncünə atmışdım. 2015-ci ildə həmin dostum Əfqanıstanda rəhmətə getdi. Qərar verdim ki, onun dediyi ssenarini yazım. Seçimlər biz insanları formalaşdırır və kim olduğumuzu göstərir. Mənim üçün ekstremal situasiyada qəhrəmanın seçimi həmişə maraqlı və vacib olub. Sən nəyi seçirsən sualı çox önəmlidir və bizim film də bu seçim haqqındadır".



Filmin təsvir rejissoru Orxan Abbasov: "Film ona görə uğurlu olur ki, o, tamaşaçıya çox dolğun və emosional təcrübə yaşadır. Düşünürəm ki, "Məryəm" filmi həm vizual, həm də emosional baxımdan zəngin bir təcrübə olacaq".

Ekran işinin rəssamı Zaur Abdullayev ssenarini oxuyub vizual tərəfini görəndən sonra həm də dramaturji xəttin ürəyincə olduğu üçün işləməyə qərar verdiyini bildirib. "Oxuduqca təsvirləri gözüm önündə canlandırırdım və həvəsim daha da artırdı. Biz hər gün oturub daha dərindən fikirləşirik ki, kinosevərlər filmdən zövq ala bilsinlər", – deyə Z.Abdullayev bildirib.

Məryəm obrazını canlandıran Təhminə Rafaella: "Filmdə ən çox qəlbimə yatan qızın atasına olan sevgisidir. Olduqca poetik hekayədir. Rejissor bu filmdə yaşanan şərtsiz sevgini özünəməxsus üslubda ifadə edir".

Məryəmin atası obrazını canlandıran Əməkdar artist Ayşad Məmmədov: "Ssenari mənə təqdim ediləndə çox xoşuma gəldi. Film boyu bir kəlmə belə sözüm yoxdur. Filmdə psixoloji vəziyyətləri yaşamalıyam və bu, çox məsuliyyətli bir obrazdır".

**Lalə AZƏRİ**

№58-59 (1836)
4 avqust 2021
www.medeniyyet.az

# Oğlunu qalib edən ata

- Bilirəm, sən jurnalistsən, məni danışdırmaq istəyirsən.
- Hardan bildin? Həm də niyə məhz səni?
- Bayaqdan mənə baxırsan, mən də gözümün altından sənə.
- Sən kimsən ki?
- Mən qalib Əfqan Abdurahmanovun qalib oğlu Əlibəyəm.

Bu qısa dialoq sayəsində yeni dostum Əlibəy Abdurahmanovla tanış oldum. Sevinirəm ki, onunla söhbətimiz elə də çətin alınmadı.





Etiraf etməliyəm ki, uzunmüddətli peşə vərdişimə və uşaqlara sevgimə rəğmən onlarla – qəhrəman şəhidlərimizin yadigarları, məsumluqları üz-gözlərinə hopmuş balaları ilə dialoq elə də asan alınmır. Onların kövrəlməsindən, ağlamasından, nisgilli yaxın dünənə boylanıb, üzlərinə qonan adi təbəssümün qeybə çəkilməsindən çox qorxuram. Amma 14 yaşlı Əlibəy məni yanıltdı. Mənimlə aramla, toxtaq söhbət etdi.

Sən demə, məramı varmış. Atası haqqında danışmaq, onun qəhrəmanlığından bir də mənə söz açmaq istəyirmiş...

Əlibəyi bu günlərdə baş çəkdiyim "Qaliblər" düşərgəsində tanıdım. Həmyaşıdları kimi o da həyatına ildırım kimi düşən itkini, yoxluğu, əzabı, heç olmazsa, bir neçə günlük unutmağa çalışırdı. Odur ki, atasından danışdıqca bulud kimi dolan gözlərini gizlətmək üçün tez-tez üzünü yana çevirir, cəld yanaqlarına süzülən yaşı silir və təbəssümünə güc verib danışırdı. Atasını, onunla keçirdiyi elə də uzun olmayan zamanı, birgə oyunlarını, valideyn kimi tələbkarlığını, mübarizliyini və ən əsası, hər evdən çıxarkən onu şəhid olaraq dönə biləcəyinə hazırladığını, "Mən olmayanda evin kişisi sənsən ha. Anandan, bacından muğayat ol. Ucadan ağlama, sınma, qorxma. Sən mənim oğlumsan, eşitdin?!" tapşırığını xatırladı. Sonra titrək səslə, bir az da astaca (sanki yanındakıların eşitməsini istəmirdi) "Atamın qapı döyüşü üçün darıxıram, xala", deyib məni varımdan yox etdi. Yanımızdakı boş kətili döyəcləyərək "Bax, atam qapını belə döyürdü, yox, çaşdım, belə. Əşi, mən onu yamsılaya bilmirəm. Amma tez-tez, həyəcanlı döyürdü, həmişə tələsirdi. Axı bizimlə görüşü elə də uzun olmurdu. Tez-tez əməliyyatlara gedirdi. Bilirsən, bilsəydim belə (danışdığımız müddətdə bir dəfə də olsun nə "öldü", nə də "şəhid oldu" sözlərini işlətmədi) olacaq, onu həmişə özüm qarşılayardım, çox danışdırardım, çox şəkil çəkdirərdim. Əslində, istəyirdim e, sadəcə, atam nə çox danışmağı sevərdi, nə də şəkil çəkdirməyi. Deyirdi "Lap az qalıb, səninlə Şuşada şəkil çəkdirərik. Sənə təzə telefon da alaram, xeyli gəzərik". Mən də hər ikisini həvəslə gözləyirdim. Atam həmişə verdiyi sözə əməl edirdi. Düzdü, indi təzə telefonum var, amma həvəsim yoxdu. Yuxarıda, otağımızdadır, şəkil çəkdirməyə də marağım qalmayıb".

Söhbətin sonunda onu yola gətirib bir "selfi" elədim. Baxdı, xoşu gəlmədi, pozdurdu və yenisini çəkdirdi. Sonra duruxdu, üzümə diqqətlə baxıb "İndi mənim danışdıqlarımı yazacaqsan" sualını verdi. Sözlər boğazımda düyünləndiyindən mən də növbətçi təbəssümümlə başımı tərpətdim. Əlini-əlinə sürtüb "Yox, atamdan yaz, o məni qalib elədi, qoy hamı onu tanısın" dedi, ordunun polkovnik-leytenantının, Vətənin igid oğlunun, özünün isə qayğıkeş, sərt və sərt olduğu qədər də kövrək və mülayim atasının portret cizgilərini çəkdi...

Əfqan Ağasəf oğlu Abdurahmanov 25 may 1976-cı ildə Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. Uşaqlıqdan hərbiyə marağı olub. Orta məktəbi bitirib həqiqi hərbi xidmətə yollandıqdan sonra uşaqlıq həvəsinin ötəri olmadığını həm nümunəvi xidməti, həm də israrla ordu sıralarında qalmaq istəyi ilə təsdiqləyib.

1997-ci ildə – hərbi xidmətdən qayıtdıqdan sonra sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verir. İmtahanlardan uğurla çıxan Əfqan Abdurahmanov hərbi təhsil aldığı dövrdə nizam-intizamı ilə seçilir, ixtisasını incəliklərinədək öyrənir. 2001-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbindən məzun olur və bir il müddətində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təcrübə keçir. 2002-ci ilin iyul ayından isə Gəncə şəhərindəki N saylı hərbi hissədə xidmətə başlayır. Beləcə, çətin və şərəfli yolda öz izlərini qoymağa başlayır, peşəkar zabit, kəşfiyyatçı yolu keçir. Müdafiə Nazirliyinin göndərişi ilə dəfələrlə Türkiyə, Çexiya və Çində müxtəlif kurslarda, hərbi təlimlərdə iştirak edir. Ordu sıralarında olduğu illər ərzində, demək olar ki, daim ön cəbhədə, düşmənlə burun-buruna xidmət aparır. 2016-cı il dördgünlük Aprelin döyüşlərində də iştirak edərək şücaət göstərir. O, nümunəvi xidmətinə görə Azərbaycan Ordusunun yaranmasının 90, 95 və 100 illik yubiley medalları, eləcə də "Qüsursuz xidmətə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medallarının müxtəlif dərəcələri ilə təltif olunub.

Əfqan Abdurahmanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində yenə də öndə olur. Tərtərin Suqovuşan qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə igidlik göstərərək az sayda canlı qüvvə ilə çoxsaylı düşmənə sarsıdıcı zərbələr vurur. Beləcə, düşməndən həm illərdir barışmadığı işğalın, həm də Aprel döyüşləri zamanı şəhadətə ucalan yaxın dostu, silahdaşı, polkovnik-leytenant Murad Mirzəyevin qisasını almağa müvəffəq olur.

Murovdağ silsiləsində strateji əhəmiyyətli zirvələrdən birinin alınmasında da iştirak edir. Azərbaycan bayrağını o zirvəyə sancmağının səadətini yaşayır, uşaq kimi gah sevinir, gah kövrəlir, gah da "Dostlarım, sizin intiqamınızı aldıq" deyir.

Suqovuşan uğrunda qanlı döyüşlərdə onun döyüşçü dəstəsi mühasirəyə düşmək təhlükəsi ilə üzləşir. Amma təcrübəli komandir bu sınaqdan da üzüağ çıxır, əsgərlərini xilas edir. Ərazini yaxşı tanıyan, uzun müddət Tərtərdə, çətin mövqelərdə xidmət edən Əfqan oktyabrın 10-da Suqovuşanın azadlığı yolunda şəhadətə yüksəlir.

Ölkə başçısının müvafiq sərəncamları ilə Əfqan Abdurahmanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

***

Silahlı Qüvvələrimizin şücaətli zabiti, Əlibəyin qəhrəman atası Əfqan Abdurahmanov haqqında yazını oğlunun sözləri ilə bitirmək istəyirəm. Mən ondan "Əlibəy, Qarabağ sənin üçün nədir" deyə soruşdum. Düşünmədən "Qarabağ Vətəndir, Qarabağ anadır, Qarabağ qalibdir. Atamın görmək istədiyi, mənimlə rahat, azad gəzmək istədiyi yerdir. Deməli, mənim üçün də doğmadır. Atam üçün əziz nə varsa, mənim üçün müqəddəsdir" dedi və məmnun halda gülümsədi.

**Həmidə NİZAMİQIZI**

# İlk qadın xor dirijorumuz

Azərbaycanda xor musiqisinin yorulmaz təbliğatçılarından biri də ilk qadın dirijorumuz, Əməkdar incəsənət xadimi, professor Ləman Atakişiyeva (1933–2015) olub. O, eyni zamanda ölkəmizdə xor ifaçılığında özünəməxsus yeri olan kamera xorunun təşkilatçısı və bədii rəhbəri kimi tanınıb.

Ləman Həsən qızı Atakişiyeva 3 avqust 1933-cü ildə Bakıda müəllim ailəsində dünyaya göz açıb. Erkən çağlardan musiqi qabiliyyəti özünü göstərir. Ləman Azərbaycan Dövlət Konservatoriyası nəzdində musiqi məktəbində təhsil alır. 1951-ci ildə məktəbi bitirir. Həmin il konservatoriyada Xor dirijorluğu şöbəsi açılır. Şöbəyə Moskva Konservatoriyasının professoru K.M.Lebedevin sinfini bitirmiş L.V.Frolova təyin edilir. Ləman da onun sinfində təhsilə başlayır. Müəllimi öz peşəkarlığı ilə tələbələrində xor sənətinə böyük maraq yaradır.

Ləman Atakişiyeva xatirələrində tələbəlik barədə yazır: "Biz Xor dirijorluğu fakültəsinin ilk tələbələri, konservatoriyaya daxil olarkən dirijorluq sahəsində orta pillə savadımız yox idi. Əsasən, bizim aramızda nəzəriyyəçilər və pianoçular idi. Və konservatoriyanın müəllimləri öz tələbələrində xor sənətinə qarşı məhəbbət hisslərini tərbiyə edə bilmiş, bizi bu janra başqa gözlə baxmağa öyrətmişlər".

Ləman Atakişiyevanın yaradıcı xormeyster kimi formalaşmasında 1954-cü ildə Bakıya dəvət edilən istedadlı musiqiçi, xormeyster A.Yurlovun böyük əməyi olur. Maestro Niyazi ilə birgə A.Yurlov 1954-cü ildə Bakıda I Mahnı bayramını təşkil edir. 1955-ci ilin mayında A.Yurlov tərəfindən növbəti Mahnı bayramı keçirilir və bu dəfə onun təqdimatı ilə tədbirin baş dirijoru konservatoriyanın tələbəsi, artıq istedadlı xormeyster kimi özünü göstərən Ləman Atakişiyeva olur. Beləliklə, o, Azərbaycanın ilk qadın xormeysteri kimi incəsənət salnaməmizə adını yazdırır. Görkəmli xormeyster bu



barədə xatirələrində belə qeyd edir: "Mahnı bayramında xeyli ifaçı iştirak edirdi. Bu böyük tədbir Respublika stadionunda keçirilirdi. Xorun tərkibinə Azərbaycanda fəaliyyət göstərən bütün xor kollektivləri: Radio və Televiziya Komitəsinin, Opera Teatrının, konservatoriyanın tələbə, bütün musiqi və ümumtəhsil məktəblərinin xor kollektivləri və b. Xor sektorlara bölünərək yerləşdirilmişdi. Xoru 3 nəfəs alətləri orkestri müşayiət edirdi. Hər bir sektorun qarşısında xormeysterlər dayanırdı – L.Frolova, E.Novruzov və başqaları. Birləşmiş xora isə mən rəhbərlik edirdim". L.Atakişiyevanın konservatoriyada təhsil aldığı dövr Azərbaycanın xor sənətinin təşəkkülü və inkişaf prosesi ilə üst-üstə düşür. O, tələbə ikən İliç adına Mədəniyyət sarayının özfəaliyyət xoruna rəhbərlik edir. Məhz bu xorun iştirakı ilə S.Raxmaninovun "Aleko" operası səhnələşdirilir. Əsəri filarmoniyanın simfonik orkestri müşayiət edir. L.Atakişiyeva sonra bu xor ilə Cənubi Qafqaz respublikaları özfəaliyyət kollektivlərinin müsabiqəsində birinci mükafata layiq görülür. 1956-cı ildə konservatoriyanın nəzdində opera studiyası yaradılır və L.Atakişiyeva kollektivə rəhbər təyin olunur. Bu studiya N.Rimski-Korsakovun "Qar qız", S.Raxmaninovun "Aleko", F.Əmirovun "Sevil" və s. operaları səhnələşdirərək tamaşaçılara təqdim edir.

L.Atakişiyeva 1966-cı ildə Rusiyanın Qnesinlər adına Moskva Musiqi-Pedaqoji İnstitutunun aspiranturasına qəbul olunur. Burada da bəxtinə A.Yurlovla birgə çalışmaq düşür. O həm də L.Atakişiyevanın elmi rəhbəri olur. Moskvadan qayıdandan sonra Azərbaycan Dövlət Konservatoriyasında Xor dirijorluğu kafedrasının dosenti kimi pedaqoji fəaliyyətini davam etdirir.

1976-cı ildə Bakıda Xor Cəmiyyəti nəzdində kamera xoru yaradılır. Kollektivin bədii rəhbəri isə L.Atakişiyeva olur. Tədqiqatçı Gülarəxanım Axundova araşdırmasında yazır ki, kamera xoru Ü.Hacıbəylinin, Q.Qarayevin, F.Əmirovun, C.Hacıyevin və digər Azərbaycan bəstəkarlarının əsərlərini yüksək peşəkarlıqla səsləndirir və hər zaman dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanır. Bu kollektivin sorağı tezliklə ölkəmizin sərhədlərini aşır. 1979-cu ildə Krımda qastrol səfərində kollektiv dinləyicilərin təkidi ilə N.Əliverdibəyovun "Bayatı-Şiraz" xor əsərini 4 dəfə ifa edir. Q.Qarayevin "Payız" əsəri uzun müddət xorun vizit kartı olub.

Kamera xoru keçmiş SSRİ-nin onlarla şəhərində, Rumıniyada qastrol səfərlərində olub. Sənətkar 1981-ci ildə Atatürk adına İstanbul Opera və Balet Teatrına baş xormeyster vəzifəsinə dəvət olunur. O, burada üç teatr mövsümündə 10-dan çox rus və qərb bəstəkarının əsərlərini hazırlayır. Eyni zamanda türk bəstəkarı Adnan Sayqunun Atatürkə həsr olunan "Dastan" adlı irihəcmli vokal-simfonik əsəri üzərində işləyir. L.Atakişiyeva Bakıya qayıdandan sonra pedaqoji fəaliyyətlə bərabər Opera və Balet Teatrında baş xormeyster vəzifəsində çalışıb.

Xor sənətinin inkişafında xidmətləri yüksək qiymətləndirilən L.Atakişiyeva 1987-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür.

Lakin onun yaratdığı kollektivin fəaliyyəti o qədər də uzun sürməyib. İttifaq ərazisində baş verən ictimai-siyasi böhranın yaratdığı çətinliklər fonunda 1989-cu ildə həm Xor Cəmiyyəti, həm də kamera xoru maddi problemlər üzündən öz fəaliyyətini dayandırır.

Görkəmli sənətkar 2001-ci ildə Rusiyanın Xor Sənəti Akademiyasından dəvət alır. 2010-cu ilə qədər Moskvada yaşayıb fəaliyyət göstərir.

Professor Ləman Atakişiyeva 2015-ci ildə, 82 yaşında vəfat edib.

**Savalan FƏRƏCOV**

# Paytaxt məktəblərində Aşıq Ələsgərin 200 illiyi münasibətilə silsilə tədbirlər

Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə paytaxt məktəblərində silsilə tədbirlər keçiriləcək. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) məlumat verilib.

Bildirilib ki, müvafiq əmr ilə təsdiqlənmiş tədbirlər planına əsasən, BŞTİ-nin tabeliyindəki ümumitəhsil müəssisələrində ustad sənətkar Aşıq Ələsgərin həyat və yaradıcılığına həsr olunmuş konfranslar, açıq dərslər, ədəbi-bədii gecələr, dəyirmi masa, müsabiqə və yarışlar keçiriləcək.

Həmçinin ustad sənətkarın 200 illik yubileyinə həsr olunmuş rəsm sərgiləri keçiriləcək. "Aşıq Ələsgər və Azərbaycan folkloru" mövzusunda şeir müsabiqəsi təşkil olunacaq. Bundan başqa, məktəb kitabxanalarında Aşıq Ələsgər irsinin təbliği və əsərlərinin müzakirəsi istiqamətində diskussiya və debatlar aparılacaq.

# Ərtoğrol Cavid ustad aşıq Vəli Miskinli haqqında

Gədəbəy aşıq mühitinin möhür siması olan aşıq Vəli Miskinli (1894-1995) dillərdə, yaddaşlarda həm də Şair Vəli, Miskin Vəli kimi, nəhayət, bu ulu sənətin inkişafında böyük xidmətlərinə görə Dədə Vəli Miskinli olaraq qalıb.

Vəli Miskinli aşıq sənətinin müqtədir isimlərindən Aşıq Alı, Aşıq Ələsgər, Abbas Tufarqanlı, Xəstə Qasım və digərlərinin saz-söz kamilliyini yaşadan bir ürfani poetik zirvə olduğuna görə dədə tituluna layiqdir. Dədə Vəli Miskinli Azərbaycanla yanaşı Türk dünyasında da tanınır.

Vəli Miskinli hələ gənclik çağlarından şairliyi və aşıq kimi ifaçılıq salğarı ilə seçildiyinə, səmimi rəftarı, abırı, urvatı ilə ağır toylara dədə sanbalı gətirdiyinə görə geniş ad-san qazanmışdı. O, təhsil almasa da, fitrətdən gələn savadına, yaddaşına, bədahətən söz qoşmasına və bütün bunlarla aşıq sənətinə Dədə Ələsgər sayağı möhür vurmasına görə seçilirdi. Həyat hikmətini, dünyanın dərkini və insanın kimliyini hamının başa düşdüyü sadə dillə ifadə edirdi.

Dədə Vəli Miskinli zamanında böyük söz xiridarları, ədəbiyyat və incəsənət ünvanları Üzeyir Hacıbəyli, Səməd Vurğun, Osman Sarıvəlli, Cəfər Xəndan, o cümlədən araşdırıcılar Ərtoğrol Cavid (böyük şair-dramaturq Hüseyn Cavidin oğlu) və Hümmət Əlizadənin diqqətini çəkmiş, onların rəyləri ilə şeirləri çap olunmuş, 1938-ci ildə Moskvada keçirilmiş Azərbaycan ədəbiyyat və incəsənəti dekadasına dəvət almış azsaylı aşıqlardan biri olduğuna görə hələ o illərdə məşhurlaşmışdı.

Nakam ömür yaşamış, lakin istedad qabiliyyəti ilə uğurlu işlərə imza atmış Ərtoğrol Cavid (1919-1943) Vəli Miskinli yaradıcılığını yüksək qiymətləndirmiş, sənətkarlıq xüsusiyyətlərini təhlil etmişdir. Ə.Cavid 1939-cu ildə çap edilmiş məqaləsində yazır: "...Tədqiqatçı Hümmət Əlizadə tərəfindən toplanmış 32 parça (şeir) Azərbaycan aşıqlıq tarixindəki revolyusiyaya, tematik yeniliyə, müasir xalq ruhunu öyrənməyə ən münasib əsərlərdəndir. Məzmunu doğru olan bu parçaların formal tərəfləri dəxi nisbətən mükəmməldir. Az-çox yanlışlıq, zəiflik yalnız deyişmələrdə, bağlamalarda nəzərə çarpır.

Formal səhvlərə (hecalar, qafiyələr, bölgülər...) baxmayaraq çox vaxt qüvvətli misralara, qafiyələrə təsadüf olunur. "Bənzər" şeirinin son bəndi:

*Gözüm qaldı uca boyda,*
*Gülə xar qonar nə fayda,*
*Vəli deyər, isti yayda,*
*Sinən sərin suya bənzər".*

Gənc tədqiqatçı aşıq-şairin şeirlərindəki səmimiliyi, harmoniyanı, canlı xalq dilini xüsusi vurğulayır: "Qafiyələr doğru, fikir səmimidir. Bəzən bir misrada qafiyədar kəlmələrə təsadüf olunur ki, bu daha başqa harmonik təsir buraxır. Məsələn, "Yeriyir" şeirinin ilk bəndi:

*Baxtavar başına, a çeşmə, sənin*
*Hər səhər üstünə sona yeriyir.*
*Gözlərini süzür, canımı üzür,*
*Qəmzələri nahaq qana yeriyir.*

Leksikonda xalq canlı dili hakimdir. Hansı söz olursa-olsun, xalq işlədən kimi verilib. Bəzən bir söz iki formada verilir. Məsələn, həm "bəxtəvər", həm "baxtavar". Xalq dili xüsusiyyətlərinə görə "baxtavar" doğrudur. O biri forma yanlışdır, düzəldilməlidir. 3-cü misradakı "süzür" və "üzür" kəlmələri qafiyədardır. Bu, axıcı harmonik təsir bağışlayır, yaxud "Bəxtəvər" şeirindən:

*Gözüm qaldı yanağında,*
*Alma yanax, qaymax dodax.*

Buradakı "yanax" və "dodax" qafiyələrindən başqa onlarla yarımqafiyə olan "qaymax" kəlməsi daha başqa təsir buraxır. Bəzən sonları qafiyədar deyil, ilk hecaları, törəmə kökləri eyni olur. Bu bir dərəcə ağırlıq törətsə də, tədqiq üçün xarakterik cəhətdir. Məsələn, "Dilbər" şeirindən:

*Ovçuyam ovumu ovlaram naşı,*
*Aranı dönübsən marala, Dilbər.*

Ə.Cavid aşıq ədəbiyyatını xalqa sevdirən əsas cəhətin sadəlik, səmimilik olduğunu qeyd edir və bunların, xalq ruhunun Aşıq





Vəli yaradıcılığında əksini tapdığını vurğulayır. O, şairin yuxarıda adıçəkilən "Yeriyir" şeirindən başqa bir bəndə diqqəti çəkir:

*Qüdrət qələmilə çəkilib qaşı,*
*Sinəmi yandırır eşqin ataşı.*
*Qoysalar məzara hörsələr daşı,*
*Yenə ruhum o canana yeriyir.*

Tədqiqatçı yazır ki, bu misralarda səmimi bir aşiqin təmiz qəlbi çırpınır: "Yaxud "Gözəl" şeirinin son bəndi:

*Dəhanın gövhərdi, ləblərin baldı,*
*Gözəlsən libasın ipəkdi, şaldı.*
*Desələr ki, Vəli qürbətdə qaldı,*
*Aman kəsmə məndən*
*etibar, gözəl.*

Ə.Cavid aşığın şeirlərində fonetik hal olaraq assimilyasiyaya da misal göstərir. "Bənzər" şeirinin ilk bəndini qeyd edir:

*Ay qız sənin mah camalın*
*Bahar fəsli yaza bənzər.*
*Gözlərin cannar alandır,*
*Qamətin şahbaza bənzər.*

Tədqiqatçı yazır ki, burada "can" isminin sonundakı "n" samiti cəm şəkilçisi "lar"dakı "l" samitinə təsir edib, öz halına çevirib: "canlar" əvəzinə "cannar". Kök şəkilçiyə təsir etməklə. Bu, assimilyasiyadır.

Ə.Cavid Vəli Miskinlinin bəzi şeirlərinin müəyyən redaktələr aparıldıqdan sonra çap olunmasını tövsiyə edir: "Parçaları (şeirləri – E.N.) gözəllər haqda, deyişmələr və başqaları deyə 3 qrupa bölmək olar. Bu parçaların sıra sistemi düzəlməli, kiçik formal səhvlər islah edilməli, "Dodaxdəyməz" atılmalı, natamam parçalar tamamlanıb, yoxlanmalı, ən nəhayət, hərtərəfli düzəlişdən sonra çapa buraxmalı".

Gənc araşdırmaçı aşıq-şairin şeirlərinin kitab şəklində çapı üçün bədii nümunələrin müvafiq bölmələr üzrə düzülüşünü də qeyd etmişdir. O, məqaləsinin sonunda aşıq haqqında ədəbiyyatşünas, folklorçu Hümmət Əlizadənin (1907-1941) qeydlərini (1939) olduğu kimi vermişdir: "... Vəli Gədəbəy rayonunun Miskinli kəndində 1894-cü ildə anadan olmuşdur. İki yaşında ikən atası vəfat etmiş, o, yetim qalmışdır. Anası çox çətinliklə Vəlini böyütmüşdür. Vəli 15 yaşına çatanda muzdurluğa başlamış, 7-8 il muzdur və çoban olmuşdur. O, muzdurluqda ağır həyat keçirmiş, ilk şeirlərini bu təsirdə söyləmişdir.

Vəli ölkə sovetləşdikdən sonra kurslara getmiş, yazıb-oxumağı öyrənmişdir. Miskinli Vəli indi Gədəbəy rayonunun Rüstəm Əliyev adına kolxozunun üzvüdür. Miskinli Vəlinin bir çox gözəlləmə, müxəmməs, deyişmə, divani və gəraylıları olmaqla bərabər, sovet quruluşuna, kolxoz həyatına, maldarlığa dair və dahi rəhbər Leninə, Stalinə aid şeirləri də vardır.

Miskinli Vəli sazında "Qaraçı", "Şərili", "Ovşarı", "Qaytarma", "Dilqəmi", "Yanığ Kərəmi" və "Gəncə gözəlləməsi" havalarını çalır və bu havalarda mahnılar oxuyur...".

Yeri gəlmişkən, qeyd edək ki, Hümmət Əlizadə və Ərtoğrol Cavidlə yanaşı, Vəli Miskinli zaman-zaman başqa tədqiqatçıların da diqqət mərkəzində olmuş, əsərləri nəşr edilmişdir.

**Etibar NADİROĞLU**
**Gədəbəy Aşıq Məktəbinin direktoru**

№58-59 (1836)
4 avqust 2021
www.medeniyyet.az



# Obrazlarını yaşayan sənətkar

Elə sənətkarlar var ki, fərdi istedadları sayəsində yaddaşlarda əbədi iz salır, unudulmurlar. Əmək fəaliyyətinin çox hissəsini teatra həsr edən, yaradıcılıq metodu səmimilik, təbiilik olan, Azərbaycan kinosunda 20-dən artıq filmdə yaşarı rolları ilə hafizələrdə qalan Yusif Yulduzun (1905–1979) sənət sevgisi, bilgisi də uğuruna zəmin yaradıb. Kinoda tipik surətlər yaradan, lakin potensialı tam açılmayan, dərin sənət bilgisi arxa planda qalan aktyorun anadan olmasının 116-cı ildönümündə yaradıcılıq mündəricəsini izləyəcək, xarakterik kino obrazlarını yada salacağıq.

## Kinoya təsadüfən gəlməmişdi

Yusif Yulduzun sənət estetikasını dərindən bilməsi görkəmli kinorejissorların quruluş verdiyi filmlərə dəvət almasına, məntiqli ekran əsərlərində yaradıcı heyətə daxil olmasına, tədricən filmlərdə rejissor assistenti, rejissor işləməsinə, dublyaj rejissoru kimi fəaliyyət göstərməsinə səbəb olub.

Ekran obrazları daha çox epizod, kiçikplanlı olan sənət bilicisinin rejissorların diqqətindən yayınmaması onun kinoya təsadüfən gəlməməsindən, sənət peşəkarı olmasından xəbər verir. Onun potensial zənginliyini kinoda bəyan edən debüt rolu “O olmasın, bu olsun” kinokomediyasındakı bəy surətidir. Aktyor filmdə kütləvi səhnələrdə, arxa planda təqdim olunan rolun təfsirində ifadə və jest baxımından hadisələrin ifadəli şərhinə dəstək olur, özünəməxsus təqdimatda mövcud vəziyyəti təhlil edir. Bundan sonra “Əhməd haradadır?” kinokomediyasında Yusif obrazı ilə filmin komik mexanizmini sadə vətəndaşın həyat tərzi fonunda səmimi priyomlarla davam etdirən, köməkçi planların koloritini yüksək, özünəməxsus tapıntılarla rövnəqləndirən aktyor növbəti ekran obrazlarını (məhdud imkan çərçivəsində belə) daha ifadəli, xarakterik yaradır.


“Yenilməz batalyon”


“Alma almaya bənzər”

Görkəmli kinorejissor Həsən Seyidbəylinin “Möcüzələr adası” (1963) filmində Qulam dayı obrazını həvalə etdiyi aktyorun oyunu rolu kiçik planda belə tanıtmasına, köməkçi personajın hadisələrin məziyyətinin açılmasında fəal iştirakına imkan yaradıb. Aktyorun həyat materiallarından mayalanan digər ekran personajları (Qoca – “Şərikli çörək”, Falçı – “Qərib cinlər diyarında”, Hacı Xeyri – “Yenilməz batalyon” və s.) daha genişplanlı rolları oynamağa qadir olduğunu bir daha təsdiqləyir.



“Azərbaycanfilm”də uzun illər kinooperator işləmiş Fəramiz Məmmədovun aktyor haqqında xatirələri bu təsəvvürümüzü dəqiqləşdirir: “Yusif Yulduz işinə çox dəqiq yanaşan sənətkar idi. Çəkilişə heç vaxt gecikmirdi, dublyaj fəaliyyətinə də məsuliyyətlə yanaşırdı. Hamı ilə dil tapan, yola gedən insan idi. Səsyazma studiyasında kiminsə işi tələsiyə düşəndə öz növbəsini ona verir, özü isə növbəti günü öhdəliyində olan filmi dublyaj edirdi.


“Əhməd haradadır?”


“Uşaqlığın son gecəsi”

Sakit xarakterli insan idi. Sanki öz dünyası vardı. Heç vaxt yeməkxanada yemək yemirdi. Yeməyi həmişə evdən gətirir, kənarda bir masada əyləşib sakitcə naharını edir, sonra isə işinin başına keçirdi.

“Yenilməz batalyon” filmində quraşdırılmış səhnələr üzrə operator olan Mirzə Mustafayevin assistenti kimi çalışırdım. Yadımdadır, Hüseyn Seyidzadə Yusif Yulduza aid olan kadrları bir dubla çəkirdi. Yusif Yulduz isə bundan narahatlıq hissi keçirirdi. Deyəndə ki, “Hüseyn müəllim, bəlkə bir dubl da çəkək, hansı yaxşı alınsa, onu saxlayarsınız” Seyidzadə qəti şəkildə bildirirdi ki, “Yusif bir dəfə çəkildi bəsdi, yaxşıdı”.

Filmdə Anatoli Yurçenko, Mixail Orlov və digər dəvətli aktyorlar çəkilirdilər. Onlar da Yusif Yulduzun kiçikplanlı rolu böyük coşqu ilə ifa etməsinə heyran olurdular, ona çox yaxşı münasibət bəsləyirdilər. Yusif Yulduz rolu üzərində həmişə işləyən peşəkar idi”.

Müsahibimizin Yusif Yulduz haqqında söylədikləri və onun uzunmüddətli teatr fəaliyyəti kinoda genişplanlı rollara dəvət almaması haqqında sual doğurur. Əməkdar incəsənət xadimi, tanınmış teatrşünas-tənqidçi İlham Rəhimlinin Yusif Yulduza həsr olunmuş məqaləsindən isə bu və ya digər suallara cavab tapırıq. Həmin məqalədən müəyyən çıxarışları oxucuların diqqətinə çatdırırıq.

## Qısa arayış

“Yulduz” təxəllüsü ilə məşhurlaşan Yusif Seyfulla oğlu Əliyev əslən Cənubi Azərbaycandandır. 1905-ci il avqustun 4-də Bakıda anadan olub. Yeddi yaşı olanda bir il dəmirçi yanında şəyird durub. 1913-cü ildə Türk-rus (rus-tatar) məktəbinə gedib. İki il orada oxuduqdan sonra Alekseyev adına Ali ibtidai məktəbə keçib və üç il burada təhsil alıb. 1918-ci ildə Politexnik məktəbinin mexanika şöbəsinə daxil olub. 1920-ci ildə “Gənc işçi” qəzetində məsul katib və redaktor işləyib. Bir müddət sonra Moskvada Şərq Zəhmətkeşlərinin Komitəsi Təbliğat, təşviqat şöbəsinin müdiri işləyib (1922-1925). Teatra xüsusi marağı olduğuna görə 1925-ci ildə Peterburqa gedib, Peterburq Səhnə sənəti məktəbində Sergey Pavlovun rejissor sinfində ixtisas təhsili alıb. Kursun diplom tamaşası Şekspirin “Otello” faciəsi olub. Otello rolunu da Yusif Yulduz özü oynayıb (sonralar o, Tiflisdə və Gəncədə özü quruluş verdiyi “Od gəlini” tamaşasında Elxan obrazını ifa edib). 1927-ci ildə təhsilini bitirərək Bakıya qayıdıb. Milli Dram Teatrına rejissor götürülüb və müxtəlif tamaşalara quruluş verib. Azərbaycan milli rejissor məktəbinin ilk təhsilli peşəkar rejissorlarından olan Yusif Yulduz bu sənətin formalaşmasında müstəsna xidmət göstərən sənətkarlardan biri idi. Onun həm realist, həm romantik, həm də romantik-psixoloji səpkidə monumental quruluşları olub.

## Səyyar rejissor

1932-ci ildə az müddət Naxçıvan Dövlət Dram Teatrının baş rejissoru olan Yusif Yulduz 1932-1933-cü illərdə Ordubad Dövlət Dram Teatrında baş rejissor işləyib. 1933-cü ilin aprelində teatr bağlandığına görə Bakıya qayıdıb. Burada ona iş vermədiklərinə görə 1933-cü ilin sonundan 1934-cü ilin əvvəlinə kimi Lənkəranda klub müdiri işləyib.

Lənkərandan qayıdanda əvvəlcə Akademik Dram Teatrına sıravi quruluşçu rejissor götürülən (16 fevral 1934) Yusif Yulduz 1934-cü il oktyabrın 9-da teatra baş rejissor təyin olunub. Bir qədər işləyəndən sonra həmin ilin noyabrında o, sənət yardımı üçün birillik müddətə Aşqabad Dövlət Azərbaycan Teatrına (“Az Millətlər Teatrı”) göndərilib. Bu teatrda səhnə ustalarının artması, ifadə, üslub vasitələrinin zənginləşməsi, teatrın peşəkarlıq yönümdə formalaşması, monumental yaradıcılıq yoluna yön alması məhz Yusif Yulduzun rejissorluğuna bağlıdır.

1935-ci ilin noyabrında Aşqabada ezamiyyəti sona çatan Yusif Yulduz Bakıya qayıdıb. Amma Akademik teatra nəinki baş rejissor, hətta heç sıravi quruluşçu rejissor kimi də götürməyiblər. Xalq Maarif Komissarlığı İncəsənət İşləri İdarəsinin sərəncamı ilə Tatarıstan Natsmen Dövlət Teatrına bədii rəhbər göndərilən rejissor bir ilə yaxın orada çalışıb. 1936-cı ildə Bakıya qayıdanda onu Naxçıvan teatrına bədii rəhbər təyin ediblər. Həmin ilin ikinci yarısında isə Tiflis Dövlət Azərbaycan Dram Teatrına baş rejissor vəzifəsinə gedib. Orda çox qala bilməyən rejissor Azərbaycana qayıdıb, 1938-ci ilin oktyabr ayından 1939-cu ilin iyun ayınadək Mirzəağa Əliyev adına Şamaxı Dövlət Kolxoz və Sovxoz Teatrında baş rejissor işləyib.

Bir müddət səyyar rejissor kimi müxtəlif rayon teatrlarında çalışdıqdan sonra 1939-cu ildə qısa müddətə Gənc Tamaşaçılar Teatrına sıravi rejissor götürülən Yusif Yulduz müxtəlif illərdə Qazaxıstanın Çardus vilayətinin Kerk Kolxoz və Sovxoz Teatrında (1942), Nəcəf bəy Vəzirov adına Ağdaş Dövlət Dram Teatrında (1946-1947), Göyçay Dövlət Dram Teatrında (1948-1949), Gəncə Dövlət Dram Teatrında (1935-1936 və 1950-1952), Abbasqulu ağa Bakıxanov adına Quba Dövlət Dram Teatrında (1955) bədii rəhbər və ya baş rejissor vəzifələrində çalışıb. Həmçinin İrəvan Dövlət Azərbaycan Dram Teatrında (1939-1940), Lənkəran Dövlət Dram Teatrında (1946-1947) sıravi rejissor kimi quruluşlar verib.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# “Ömrün payız çağı”nı vərəqləyərkən

Şairə, Azərbaycan Yazıçılar Birliyinin üzvü Zahidə Nüsrətqızının bu günlərdə təqdimatı keçirilən ”Ömrün payız çağı” kitabı ilə biz də tanış olduq. Kitabda müəllifin oxucunu heyrətləndirən, dərin düşüncələrə qərq edən, sözün sehrinə salan, ülviyyətə səsləyən şeirləri yer alıb.

*Şair şeir yazır, misralar düzür,*
*Sərir vərəq üstə düşüncələri.*
*Gizlənir yazdığı misralar altda*
*Bir şair sevinci, şair kədəri...*

Nəşrin ön söz müəllifi və redaktoru, filologiya üzrə fəlsəfə doktoru Vahidə Cəfərzadə bildirir ki, şairin həyata, gerçəkliyə, dünyada və ölkəmizdə baş verən hadisələrə özünəməxsus münasibəti var. Mənəvi-əxlaqi mövzulu şeirlərdə həssas bir ana qəlbinin çırpıntıları eşidilir. Kitabda uzun illər xalqımızın bağrında ağrıya çevrilən Qarabağ mövzusunda şeirlər qırmızı xətlə keçir.

Kitabı vərəqlədikcə oxucunun gözləri qarşısında söz duyumlu, həyata sevgi ilə yanaşan, Bakı küləyinin romantikliyini incə misralara düzən zərif qəlbli, zəhmətkeş bir ana obrazı canlanır.

**LALƏ**

# “Nə yaxşı göydədi hələ göy üzü”...




Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, publisist Hüseyn Bağıroğlunun ”Nə yaxşı göydədi hələ göy üzü” şeirlər kitabı çapdan çıxıb. Kitabı 60 illik yubileyini qeyd edən şairin oxucuları qarşısında yaradıcılıq hesabatı kimi də dəyərləndirmək olar.

Kitabda yer alan bədii nümunələr insanları mənəvi ucalığa, saflığa, özünüdərkə, humanizmə səsləyir.

*Kim deyir bu ömür, bu gün havayı...*
*Hər ürək bir eşqin uçmuş sarayı.*
*Səhərlər Günəşi, axşamlar Ayı,*
*Gecələr özümü varaqlayıram...*

“Bir şəhid əynində köynəkdi Vətən” deyən şairin yeni kitabında yurd sevgili, şanlı Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı Qələbə soraqlı şeirlər xüsusi yer tutur. “Vətən”, “Azərbaycanım”, “Salam, əziz Şuşa”, “Azərbaycan-Türkiyə”, “Sənin baban”, “Azərbaycan əsgəri” və başqa şeirlərdə doğma torpağa bağlılıq, Vətən övladlarının misilsiz qəhrəmanlığı yüksək poetik dillə nəzmə çəkilib.

Kitabın üz qabığında Hüseyn Bağıroğlunun şeirin, bədii sözün yarandığı sirli məqam haqqında düşüncələri də verilib. Müəllif şeirin doğulduğu anı ağacların yaşıl yarpaqlarında gedən fotosintez prosesi ilə müqayisə edir: “Şair həyəcanlanır və belə deyək ki, “öz orbitindən” çıxır. Bir neçə misranı qəbul edib “orbitinə” qayıdır. Sonra pərvanə şamın başına dolanan kimi şairin fikirləri də o misraların başına dolanır. Yavaş-yavaş şeir tam şəkildə görünür və yazılır...”.

Qeyd edək ki, Bakıda “ReadENG Publishing” MMC-də nəşr olunan kitabın redaktoru “Mədəniyyət” qəzetinin baş redaktor müavini Fariz Yunislidir.

Bundan əvvəl Hüseyn Bağıroğlu “Adam kölgəsinə səsləmə məni” (1998), “Mən çiynimdən yerə qoydum dünyanı” (2001), “Başımda qar olur, ayağımda yaz” (2010) adlı kitabları ilə oxucuların görüşünə gəlib.

## Xatirə təqvimi

6–12 avqust

### Azərbaycan

**6 avqust 1939** – İlk azərbaycanlı kinorejissorlardan olan Səməd Həşim oğlu Mərdanov (22.9. 1909 – 1939) vəfat edib. 1939-cu ildə çəkdiyi “Kəndlilər” bədii filmi Azərbaycan kinosunun “qızıl fondu”na daxildir.

**6 avqust 1939** – Əməkdar artist Oqtay Əlidadaş oğlu Dadaşov (1939-1999) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub.

**6 avqust 1948** – Xalq artisti Süleyman Paşa oğlu Nəcəfov (1948 – 9.5.2012) İrəvan şəhərində doğulub. C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**7 avqust 1930** – Milli təsviri sənətin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, dövlət mükafatları laureatı Toğrul Fərman oğlu Nərimanbəyov (1930 –2.6.2013) Bakıda anadan olub. Natürmort, portret, mənzərə və s. janrlarda əsərlərin, freskaların müəllifidir. Teatr tamaşalarına bədii tərtibat verib, “Dədə Qorqud” filminə rəsmlər çəkib. Parisdə dəfn olunub.

**7 avqust 1944** – Şair, ədəbiyyatşünas Əhməd Elbrus (Elbrus Misir oğlu Əhmədov; 1944-2006) Ağcabədi rayonunun Salmanbəyli kəndində doğulub.

**7 avqust 1960** – Əməkdar artist Yusif Əlibala oğlu Dadaşov (1913-1960) vəfat edib. Gənc Tamaşaçılar Teatrı yaranandan (1928) onun səhnəsində aktyor kimi çıxış edib.

**7 avqust 1952** – Tanınmış azərbaycanlı arxeoloq, etnoqraf Davud Mikayıl oğlu Şərifov (1885–1952) vəfat edib. Qəbələ qədim şəhər yerinin ilk arxeoloji ekspedisiyasının rəhbəri olub.

**9 avqust 1912** – Əməkdar mədəniyyət işçisi, jurnalist, kino xadimi Bağır Mir Qasım oğlu Seyidzadə (1912-1968) İrəvanda doğulub. Respublikanın kinematoqrafiya naziri (1949-1952), mədəniyyət nazirinin müavini, Azərbaycan Teleqraf Agentliyinin (indiki AZƏRTAC) sədr müavini işləyib.

**10 avqust 1910** – Aktyor, rejissor, Əməkdar artist İsmayıl Mahmud oğlu Əfəndiyev (1910 – 30.5.1967) Göyçayda anadan olub. “Arşın mal alan” (1945), “O olmasın, bu olsun”, “Qızmar günəş altında” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb. “Kölgələr sürünür” filminə quruluş (Ş.Şeyxovla birgə) verib, filmlərin səsləndirilməsində iştirak edib.

**10 avqust 1913** – Xalq rəssamı Kazım Məmmədəli oğlu Kazımzadə (1913 – 6.10. 1992) anadan olub. Opera tamaşaları (“Leyli və Məcnun”, “Koroğlu”) və filmlərin (“Bir qalanın sirri”, “Qanun naminə”, “Qanlı zəmi” və s.) geyim üzrə rəssamı olub. 1942-ci ildən ömrünün sonunadək Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru işləyib.

**10 avqust 1946** – Nasir, tərcüməçi Aydın Ələkbər oğlu Abdullayev (1946 – 15.12.1995) anadan olub. Qrim qardaşlarının nağılları, Stendalın “Qırmızı və qara” romanı və s. əsərləri dilimizə çevirib.

**10 avqust 1949** – Xalq artisti, xanəndə Qəndab Nəbi qızı Quliyeva (1949 – 26.6.2017) Füzuli rayonunun Dilağarda kəndində doğulub. Opera tamaşalarında Leyli, Əsli (“Leyli və Məcnun”, “Əsli və Kərəm” – Ü.Hacıbəyli), Ərəbzəngi (“Şah İsmayıl” – M.Maqomayev) və s. partiyaları ifa edib.

**11 avqust 1910** – Xalq artisti Konstantin Mixayloviç Myakişev (1910-1990) Bakıda doğulub. 1930-1960-cı illərdə (fasilələrlə) Dövlət Rus Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**11 avqust 1973** – Şair, dramaturq, Əməkdar incəsənət xadimi Zeynal Rza oğlu Xəlil (1914-1973) vəfat edib. “Düşüncələr”, “Sevdiyim rəng” və s. şeir kitabları, “Ulduzlar” mənzum romanı, “İntiqam”, “Ata yolu” pyeslərinin müəllifidir.

**12 avqust 1880** – Tanınmış dilçi alim, jurnalist Fərhad Rasim oğlu Ağazadə (1880-1931) anadan olub.

**12 avqust 1921** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (1921 – 23.9.2014) anadan olub. “Haradasan, dost, harada”, “Adamlar və talelər”, “Sönmüş ulduzların işığı” və s. romanların müəllifidir.

**12 avqust 1923** – Tərcüməçi Kamil Həsən oğlu Məmmədov (1923-1989) Bakıda anadan olub. SSRİ xalqları ədəbiyyatından tərcümə etdiyi pyeslər teatrlarda tamaşaya qoyulub.

**12 avqust 1926** – Xalq şairi, Dövlət mükafatı laureatı Qabil (Qabil Allahverdi oğlu İmamverdiyev; 1926 – 3.4. 2007) Bakıda anadan olub. Kitabları: “Mənim mavi Xəzərim”, “Ömrüm boyu”, “Nəsimi”, “Ömrün həbləri”, “İlahi qisməti” və s.

### Dünya

**6 avqust 1868** – Fransız yazıçısı, şair, dramaturq Pol Klodel (Paul Claudel; 1868-1955) anadan olub. Əsərləri: “Qızıl baş”, “Girov”, “Boyat çörək”.

**6 avqust 1899** – Gürcü aktyoru və rejissoru, SSRİ Xalq artisti Akaki Vasadze (1899-1978) anadan olub. Filmləri: “Böyük ustadın sağı”, “Ayın oğurlanması”.

**7 avqust 1867** – Alman ekspressionist rəssamı Emil Nolde (Hansen; 1867-1956) anadan olub.

**7 avqust 1911** – Amerika aktyoru və kinorejissoru Nikolas Rey (Nicholas Ray; 1911-1979) anadan olub. “İdealsız üsyankar” filminə görə “Oskar” mükafatı alıb.

**8 avqust 1928** – Rusiyanın Xalq artisti Nina Menşikova (1928-2007) anadan olub. Çəkildiyi filmlər: “Əsgər haqqında ballada”, “Qızlar” və s.

**9 avqust 1899** – Avstraliya əsilli ingilis yazıçısı Pamela Trevers (Pamela Lyndon Travers – əsl adı Helen Lyndon Goff; 1899-1996) anadan olub. “Meri Poppinsin macəraları” seriyasından əsərlərin müəllifidir.

**9 avqust 1963** – Amerika müğənnisi Vitni Hyuston (Whitney Elizabeth Houston; 1963 – 11.2.2012) anadan olub. Dəfələrlə “Qremmi” və “Emmi” mükafatı qazanıb.

**9 avqust 1975** – Görkəmli rus bəstəkarı, pedaqoq Dmitri Şostakoviç (25.9.1906 – 1975) vəfat edib. “Mtsen qəzasının ledi Makbeti” operasının, “Qızıl əsr”, “İşıqlı bulaq” və s. baletlərin, dünya musiqi xəzinəsinə daxil olan simfoniyaların müəllifidir. Filmlərə (“Ovod”, “Hamlet”) musiqi yazıb.

**10 avqust 1845** – Qazax klassik ədəbiyyatının banisi, maarifçi şair Abay (əsl adı İbrahim Kunanbayev; 1845-1904) anadan olub. “Qara söz” adlı 45 pritça və fəlsəfi traktatdan ibarət poema ədibin ən böyük əsəridir.

**10 avqust 1895** – Rus şairi və yazıçısı Mixail Zoşenko (1895-1958) anadan olub. Əsərləri: “Qaytarılmış gənclik”, “Taras Şevçenko” povestləri və s.

**10 avqust 1912** – Braziliya yazıçısı Jorji Amadu (Jorge Amado; 1912-2001) anadan olub. Romanları: “Möcüzələr köşkü”, “Müqəddəsin yox olması”, “Qumsallıq kapitanları” və s.

**10 avqust 1960** – Gürcü aktyoru Mamuka Kikaleyşvili (1960 – 3.5.2000) anadan olub. Azərbaycanda rejissor Vaqif Mustafayevin “Yaramaz” filmində (Hətəm) çəkilib.

**11 avqust 1748** – Alman bəstəkarı Yozef Şuster (Joseph Schuster; 1748-1812) anadan olub.

**11 avqust 1921** – Amerika yazıçısı Aleks Heyli (Alexander Murray Palmer Haley; 1921-1992) anadan olub. Avtobioqrafik “Köklər” romanı ilə dünya şöhrəti qazanıb.

**12 avqust 1866** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1922) laureatı Xasinto Benavente-i-Martines (Jacinto Benavente Martinez; 1866-1954) anadan olub. “Qubernatorun xanımı”, “Şənbə gecəsi”, “Yaxşı məhəbbətin dərsləri” və s. pyeslərin müəllifidir.

**12 avqust 1955** – Alman (yəhudi əsilli) yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1929) Tomas Mann (Paul Thomas Mann; 6.6.1875 – 1955) vəfat edib. İntellektual nəsrin ustası olub. Əsərləri: “İosif və onun qardaşları” tetralogiyası, “Buddenbroklar”, “Doktor Faustus” romanları və s.

**Hazırladı: Vüqar ORXAN**

# Açıq havada “Fotoların tarixi”

## “Otuz ildir Qarabağ məsələsini dünyaya çatdırıram”

Hər zaman görəndə ki, dünya haqq sözə göz yumub, fotolarımla ədalətin bərpa olunacağına inanmışam. Bir çox ölkədə siyasi səbəblərə görə insanlara səhv məlumat verilir. Mən həmin insanların gözünü açmağa çalışmışam. Çox zaman Avropada, əsasən də Fransada dünyada baş verən hadisələri cəmiyyətə olduğu kimi çatdırmırlar. Mən orada sərgilər təşkil edir, insanlara fotolarımla həqiqəti göstərməyə çalışıram.



Dünya şöhrətli fotoqraf soydaşımız Rza Diqqəti (Reza Deqati) bu sözləri iyulun 31-də Heydər Əliyev Mərkəzinin önündə açıq havada təşkil olunan “Fotoların tarixi” adlı sərgisində deyib.

“Mən otuz ildir Qarabağ məsələsini dünya ictimaiyyətinə çatdırıram. Fransada təşkil etdiyim sərgidə erməni diasporu mənimlə razılaşmayıb, hətta sərgimi pozmağa çalışıb. Əfqanıstan, Ruanda, Sarayevo məsələlərində də eyni hallarla qarşılaşmışam. Kimsə mənimlə razılaşmayanda fakt olaraq fotolarımı göstərirəm”, – deyə fotoqraf bildirib.

Sərgilənən fotoları haqda məlumat verən R.Diqqəti Azərbaycanın tolerant ölkə olduğunu bildirib: “Rus pravoslav kilsəsi sovet dövründə bağlanıb, anbar və idman zalı kimi istifadə edilib. 1990-cı ildə baş vermiş qanlı 20 Yanvar hadisələrində sovet qoşunları Bakıda qırğın törədəndə atılan güllələr kilsəyə də ziyan vurub. 2000-ci ildə azərbaycanlı iş adamı Aydın Qurbanov kilsəni öz vəsaiti hesabına bərpa etdirib. Bu, azərbaycanlıların tolerant olduğunu göstərən nümunələrdən biridir”.





O, Birinci Qarabağ müharibəsində Şuşada olarkən çəkdiyi foto barədə danışarkən deyib: “O vaxt yollar bağlı idi. Dağlarda uzun və çətin yürüşdən sonra mən Şuşa şəhərinə çatdım. Blokada zamanı artilleriya atəşi şəhərin əksər hissələrini məhv etmişdi və buna görə də azərbaycanlı əsgərlər Şuşadakı məktəbdən yaşayış yeri kimi istifadə edirdilər. O vaxt cəsur əsgərlər lazımi təchizatların çatışmazlığı səbəbindən əziyyət çəkirdilər. 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri şəhəri ələ keçirdilər. 28 il sonra, 2020-ci il noyabrın 8-də şiddətli döyüşlər nəticəsində Azərbaycan əsgərləri ən təhlükəli və çətin dağ yollarını aşaraq şəhəri geri qaytardılar. Mən oraya qayıdanda bütün evlərin, məscidlərin, muzeylərin, tarixi abidələrin, məktəblərin, qəbiristanlıqların məhv edildiyini gördüm. Bu isə erməni faşizminin mahiyyətini göstərir”.

R.Diqqəti çəkdiyi digər fotoların da tarixindən danışıb, ictimaiyyət nümayəndələrinin və jurnalistlərin suallarını cavablandırıb.

Sərgidə məşhur fotoqrafın 100 fotosu nümayiş etdirilir.

# Latviyadakı konfransda xalça mədəniyyətimizdən bəhs olunub

Latviyanın Gulbene şəhərində “Divi Juliji” (İki Yulius) IV Beynəlxalq İncəsənət Festivalı keçirilib. 30-31 iyul tarixlərində gerçəkləşən festival bu şəhərdə anadan olmuş tanınmış iki rəssam – Yulius Straume və Yulius Madernieksin xatirələrinə həsr olunur. Tədbirdə Azərbaycan Milli Xalça Muzeyinin direktoru, İCOM Azərbaycan Milli Komitəsinin sədri Şirin Məlikova da iştirak edib.



Festival çərçivəsində Gulbene Bələdiyyə Tarix və İncəsənət Muzeyində IV Beynəlxalq elmi-praktik konfrans təşkil olunub. Şirin Məlikova konfransda “Azərbaycan xalça mədəniyyəti. Ənənə və müasirlik” mövzusunda məruzə ilə çıxış edib.

Ş.Məlikova tədbir iştirakçılarına qədim xalça sənəti, Azərbaycan Milli Xalça Muzeyinin tarixi və onun yaradıcısı, görkəmli alim Lətif Kərimov, vaxtilə Qafqaz Kustar Komitəsinin rəhbəri olmuş latviyalı Yulius Straumenin Qafqazdakı fəaliyyəti haqqında müfəssəl məlumat verib. Direktor ölkəmizdə xalçaçılıq sənətinin əsas inkişaf istiqamətləri, o cümlədən müasir rəssamların yaradıcılığında ənənələrin yaşadılması prosesini xüsusi vurğulayıb. Bu kontekstdə Azərbaycan Milli Xalça Muzeyinin həm ölkəmizdə, həm də xaricdə keçirdiyi layihələrin ictimaiyyət tərəfindən böyük maraqla qarşılandığı, son dövrdə ənənələrin yeni interpretasiyada təqdimatının Faiq Əhməd, Çingiz Babayev və başqa rəssamların əsərlərində müşahidə edildiyi diqqətə çatdırılıb.

Məruzəçinin Azərbaycan xalçaçılıq sənətinin günümüzdə davamlı olaraq yeni yanaşmalarla daha da zənginləşməsinin bariz nümunəsi olan son layihələr – Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş xalça eskizi müsabiqəsi və Kazan şəhərində təşkil edilmiş “Xalça sənəti – mənaların təkamülü” sərgisi haqqında təqdimatı da konfrans iştirakçılarında maraq doğurub.

Milli Xalça Muzeyinin direktoru xalça ornamentlərinin semantikası, qədim xalçatoxuma texnologiyalarının dirçəldilməsi, Azərbaycanda xalçaçılıq sənətinin dövlət tərəfindən dəstəklənməsi haqqında iştirakçıların suallarını cavablandırıb, bu sahədə ölkəmizdə gənc kadrların hazırlanmasından, xalça sənətində toxucu və rəssam qadınların mühüm rolundan söhbət açıb.

Konfransda Latviya, Türkiyə, Danimarka, İrandan olan mütəxəssislər də müxtəlif mövzularda məruzələrlə çıxış ediblər. Sonda konfrans iştirakçıları arasında müzakirələr aparılıb.

Gulbene Bələdiyyə Tarix və İncəsənət Muzeyinə Azərbaycan Milli Xalça Muzeyinin nəşrləri təqdim olunub, konfrans iştirakçılarına isə muzeyin promomaterialları – açıqcaları, broşürləri paylanılıb.

İkigünlük festivalda sərgilər, xalçatoxuma, boyaqçılıq, xəttatlıq və dekorativ-tətbiqi sənətin digər sahələri üzrə ustad dərsləri də keçirilib.

# Özbəkistan tam olaraq latın əlifbasına keçib




Azərbaycanda 20 il əvvəl latın qrafikalı əlifbaya keçidin başa çatdığı 1 avqust tarixi Özbəkistanda da yeni əlifbanın bayramına çevrilə bilər. Bu tarixdən Özbəkistan tam olaraq latın əlifbasına keçib.

Qeyd edək ki, indiyədək dövlət orqanları tərəfindən şəhər, küçə, məhəllə, kənd, nazirlik, komitə, digər idarə və təşkilat adlarının, rəsmi sənəd və yazışmaların, müxtəlif blankların, kargüzarlıq sənədlərinin, kitab və qəzetlərin, reklam və elanların latın əlifbasında yazılışı və çapı təmin edilib.

Xatırladırıq ki, 2021-ci il fevralın 10-da Özbəkistan Nazirlər Kabinetinin qəbul etdiyi qərara görə, ölkə tam olaraq latın əlifbasına 2022-ci ilin sonunadək keçməli idi. Daha sonra Özbəkistanın müstəqilliyinin 30 illiyi ilə bağlı latın qrafikalı əlifbaya keçidin tezləşdirilməsi qərara alındı.

# Misirdə Azərbaycan dili kurslarının yeni dinləyiciləri ilə görüş

“Vətənpərvər” – Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin nəzdində fəaliyyət göstərən və Qahirənin müxtəlif universitetlərində təhsil alan misirli və əcnəbi tələbələrə ödənişsiz əsasda təhsil verən kursların Azərbaycan dili üzrə bölməsinin yeni dinləyiciləri ilə görüş keçirilib.

Birliyin sədri, tədqiqatçı-alim Seymur Nəsirov çıxış edərək tələbələrə Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı barədə məlumat verib. Azərbaycan dilinin əhəmiyyətindən bəhs edən diaspor sədri diqqətə çatdırıb ki, hər il təşkil edilən bu kursların dinləyiciləri Azərbaycan dilinin qrammatik qaydalarını öyrənir, həmçinin sonradan tərcümə ilə məşğul olurlar. Tələbələrin tərcümə etdikləri məqalələr yaxın vaxtlarda Misir-Azərbaycan Dostluq Cəmiyyətinin fəaliyyəti ilə bağlı işıq üzü görəcək nəşrdə dərc olunacaq. Kurslarda həmçinin ölkəmizin tarixi, mədəniyyəti və ədəbi irsi də tədris edilir.

S.Nəsirov kurslarda iştirak edəcək 41 tələbəyə tədris prosesi haqqında müfəssəl məlumat verib. Ümumilikdə diaspor mərkəzində dünyanın 31 ölkəsindən 350 tələbə Azərbaycan dili ilə yanaşı, ərəb dili, dekorasiya, xəttatlıq sənəti və digər fənlər üzrə ödənişsiz təhsil alır.

# İzmirdə növbəti Efes Opera və Balet Festivalı keçiriləcək

Türkiyənin İzmir şəhəri artıq ənənə halını alan Efes Opera və Balet Festivalına növbəti dəfə ev sahibliyi edəcək. IV Beynəlxalq Efes Opera və Balet Festivalının 24 avqust – 3 sentyabr tarixlərində keçirilməsi nəzərdə tutulur.










Türkiyə Dövlət Opera və Balet Teatrından verilən məlumata görə, 2018-ci ildə əsası qoyulan festival 2021-ci ildə pandemiya ilə bağlı zəruri tədbirlərə uyğun təşkil ediləcək. Festivalda klassik opera və balet əsərləri ilə yanaşı, konsert proqramları da təqdim edilir.

Builki festival 24 avqustda “Efes Antik Teatrı” səhnəsində İzmir Dövlət Opera və Balet Teatrının təqdimatında Cüzeppe Verdinin “Traviata” operasının tamaşası ilə açılacaq.

26 avqustda “Efes Odeon”da Praqa Dövlət Operasından Mikaela Zaymi, Bledar Zaymi, Eqli Prifti və İzmir Dövlət Opera və Balet Teatrı Orkestrinin fleytaçısı Hürkan Eyvazoğludan ibarət “Praqa ansamblı”nın konserti olacaq.

Avqustun 28-də “Efes Antik Teatrı”nda fransız bəstəkarı Jorj Bizenin “Karmen” operasının musiqiləri əsasında xüsusi xoreoqrafik tamaşa göstəriləcək.

1 sentyabrda Bornova Aşıq Veysəl Amfiteatrında Ankara Dövlət Opera və Balet Teatrı Müasir Rəqs Birliyi tamaşaçıları ötən əsrin 30-cu illər Amerikasına aparan “Qanqster” konsert proqramı təqdim edəcək.

Festivalın 3 sentyabrda “Efes Antik Teatrı”nda təqdim ediləcək son konserti 2021-ci ildə həyatını itirən Türkiyə opera dünyasının məşhur iki tenoru Ender Arıman və Erol Urasa ithaf ounlacaq. Xatirə konsertində İzmir Dövlət Opera və Balet Teatrı Orkestrinin xoru və solistləri çıxış edəcək.

**Mehparə SULTANOVA**
**Ankara**

# “Özünü kəşf et” – ustad dərsləri davam edir

Azərbaycan Rəngkarlıq Muzeyində rəssamlığa həvəsi olan 16 yaşdan yuxarı gənclər üçün nəzərdə tutulmuş “Özünü kəşf et” devizli ustad dərsləri davam edir.



Avqustun 4-də rəssam Çingiz Babayevin keçəcəyi növbəti dərs “Eşq naxışları” mövzusunda olacaq. Layihə avqustun 11-də Gülarə İsrafilovanın iştirakı ilə “Səyahət”, 18-də Əməkdar rəssam İrina Eldarovanın iştirakı ilə “Güllər” mövzusunda dərslərlə davam edəcək. Ay ərzində sonuncu dərs avqustun 25-də Eliyar Əlimirzəyevin rəhbərliyi ilə “Rəssamın gözü” mövzusuna həsr olunacaq.

Qeyd edək ki, təcrübəsindən asılı olmayaraq hər kəs dərslərdə iştirak edə bilər. Bütün ləvazimatlar muzey tərəfindən qarşılanır.

Yerlər məhdud olduğundan qeydiyyatdan keçmək zəruridir. Qeydiyyat çərşənbə axşamı – bazar günü saat 12:00-dan 20:00-dək aparılır.

Ustad dərsləri ödənişsizdir.

# Göydən içməli su gələcək...

Dünyada ilk dəfə atmosferdən dayanıqlı su təchizatını həyata keçirəcək layihəyə start verilib. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabinin Məsdər rayonunda ABŞ-ın “Aquovum” texnoloji şirkəti ilə birlikdə pilot layihənin reallaşdırılmasına başlanılır.

Əbu-Dabidə keçirilən mətbuat konfransında bildirilib ki, bərpaolunan enerji mənbələri hesabına işləyəcək atmosfer su generatorları unikal keyfiyyətə malikdir. Termal enerji vasitəsilə havadan su təmin edəcək generatorlar hesabına dayanıqlı su təchizatı mümkün olacaq. Eyni zamanda karbon qazı emissiyasının qarşısını alacaq yeni innovativ texnologiya nümunəsi BƏƏ-də həyata keçirilən yaşıl iqtisadiyyata da töhfə olacaq.

Yeni layihəni texnologiyada inqilab kimi qiymətləndirən “Global Market İnsight” təşkilatı bəyan edib ki, bu generatorların tezliklə dünyada, xüsusən su problemləri olan Yaxın Şərq və Afrikada quraşdırılması içməli suya olan tələbatın təmin edilməsində mühüm rol oynayacaq.

Atmosfer su generatorlarının bir ildən sonra sınaqdan keçirilməsi və istifadəyə verilməsi nəzərdə tutulur.

# “Roma imperiyasının sərhədləri”

## Hissə-hissə Dünya İrsi Siyahısına salınır

Çinin Fuçjou şəhərinin ev sahibliyində, lakin onlayn formatda gerçəkləşən (16 –31 iyul) UNESCO-nun Dünya İrs Komitəsinin 44-cü sessiyasında Dünya İrsi Siyahısına daxil edilən nominasiyalardan biri də Dunay çayı boyunca yerləşən qədim Roma istehkamlarıdır.

Nominasiya Avstriya, Almaniya və Slovakiyanın birgə müraciəti əsasında Dünya İrsi Siyahısına təqdim edilmişdi.

Latınca limes (sərhəd) adlanan bu istehkam, qala və müdafiə məqsədli tikililər Roma imperiyası dövründə Böyük Britaniyadan başlayaraq Mərkəzi və Şərqi Avropaya, oradan isə Yaxın Şərq və Şimali Afrikaya uzanan geniş bir arealı əhatə edib. İndiyədək Böyük Britaniyada yerləşən Adrian və Antonius səddi (1987/2008-ci illər) və Almaniyada yerləşən Yuxarı German-Ret sərhəd istehkamları (2005) Dünya İrsi Siyahısına daxil edilib. Dunay çayı boyunca yerləşən istehkam qalıqları ilə ümumi uzunluğu 6 min kilometrə çatan “Roma imperiyasının sərhədləri” adlı transmilli layihənin növbəti mərhələsi mötəbər siyahıda yer alıb.



Avstriyada 22 məntəqə Dunay istehkamları arasında yer alır. Onların sırasında mühüm arxeoloji qazıntı məkanları, qədim sərhəd istehkamları və onların bürcləri, nəqliyyat yolları və sərhəd yaxınlığındakı mülki yaşayış məskənləri də var.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1377

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.